Conclusion. History of Caucasian Albania The provinces of Artsakh and Uti were an important part of Karabakh, the land of ancient Azerbaijan, in the ancient and early Middle Ages. The settlements located there were among the important settlements of the Albanian rulers. Artsakh province, the birthplace of Vachaga The Pious III, was at the center of attention during his reign, where Albanian temples were built and the city of Aquen was chosen as a summer residence. According to written sources, the city of Aquen is a pasture-type city. There is no doubt that a large city will be built in the foothills. The discovery of a pottery disk with the name of Vachaga The Pious III engraved on it from the settlement of Shahbulag and the geographical and relief features of the area give grounds to localize it as the city of Aquen. In the future, our archeological research will provide more detailed scientific information about the Shahbulag settlement.

References

1. Yampolskiy Z. Monuments of Caucasian Albania in the Mount of Beshikdagh // Soviet archaeology, Moscow, , p. 246-250. 1960
2. Mammadova G.G Architecture of Caucasian Albania, Baku, “Chashioghlu”. 224p. 2004
3. Kalankatlu Moisey (2006) History of Albania (translated by Z.M.Bunyadov), Baku, “Eurasia” press, 378p. 2006
4. Geyushev R.B., Vahidov R.M., Guliyev N.M. (1973) Works of Govurgala archaeological group (Aghdam district) // Archaeological and Ethnographical investigations in Azerbaijan, Baku, p.41-42 1973

http://doi.org/10.58225/sw.si.2022.1.75-82

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNAN RAYONLARINDA MADDİ- MƏDƏNİ İRSİN HAZIRKI VƏZİYYƏTİNƏ DAİR

Mikayılova Mehriban- m.ü.f.d., dosent, Memarlıq fakültəsi, Ondokuz Mayıs Üniversiteti, mikayilova2011@yandex.com
Ağayeva Nərmin- m.ü.f.d., dosent, Başak Çengiz adına memarlıq fakultəsi, Karabük Üniversiteti, narminaghayeva@karabuk.edu.tr

Xülasə. Məqalə Azərbaycanın erməni işğalından azad olunan rayonların maddi-mədəni irsinin hazırkıvəziyyətinin tədqiqinə həsr olunub. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağın işğal olunmuş ərazilərinin memarlıq abidələrinə dəyən zərərlər nəzərdən keçirilir. Cəbrayıl, Zəngilan, Füzuli, Ağdam, Qubadlı, Şuşa, Kəlbəcər, Xocalı şəhərlərinin və digər yaşayış məntəqələrinin tarixi memarlıq tikililərində müşahidə olunan dağıntılardan bəhs edilir. Memarlıq abidələri üzərində aparılan erməni falsifikasiyası göstərilir. Sözü gedən yaşayış məntəqələrinin bərpası zamanı memarlıq irsinin qorunub saxlanması problemləri təhlil olunur.
Açar sözlər: maddi- mədəni irs, işğal olunmuş ərazilər, erməni saxtakarlığı, Qarabağın memarlıq abidələri

ON THE PRESENT STATE OF THE MATERIAL AND CULTURAL HERITAGE OF THE REGIONS OF AZERBAIJAN RELEASED FROM THE OCCUPATION

Mikayilova Mehriban- PhD., ass.prof., department of Architecture, Ondokuz Mayıs University, mikayilova2011@yandex.com
Aghayeva Narmin- PhD., ass.prof., department of Architecture named Bashak Karabuk University, Çengiz Mimarlık Fakültesi, narminaghayeva@karabuk.edu.tr

Abstract. The article is devoted to the study of the current state of the material and cultural heritage of the regions of Azerbaijan liberated from the Armenian occupation. The damage caused to the architectural monuments of the occupied territories of Karabakh as a result of the occupation by Armenia is considered. The ruins observed in the historical and architectural structures of the cities of Jabrayil, Zangilan, Fizuli, Aghdam, Gubadli, Shusha, Kalbajar, Khojaly and other settlements are considered. The Armenian falsification of architectural monuments is shown. The problems of preserving the architectural heritage during the restoration of these settlements are analyzed.
Keywords: material and cultural heritage, occupied territories, Armenian falsification, architectural monuments of Karabakh

Giriş. Otuz ilə yaxın müddətdə düşmən tapdağı altında qalan Azərbaycanın Qarabağ bölgəsində erməni vandalları yaşayış yerlərinin ərazilərində çox böyük dağıntılar etmiş və mövcud olan dəyərli maddi-mədəni irsə böyük ziyan vurmuşlar. Bu dağıntılar Qarabağın xüsusən Cəbrayıl, Zəngilan, Füzuli, Ağdam, Qubadlı, Şuşa, Kəlbəcər, Xocalışəhər və kəndlərində və digər yaşayış məntəqələrində müşahidə olunur. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizin memarlıq irsinə dəyən ziyanın həcmi çox böyükdür. Erməni işğalçıları Azərbaycanın 871 yaşayış məntəqəsini, o cümlədən 11 şəhərini, 12 qəsəbəsini, 848 kəndini xarabaya çevirmişlər. İşğal illərində bu məntəqələrdə baş verən kütləvi dağıntılar nəticəsində, tarixi şəhər strukturu, çoxsaylı memarlıq abidələri tamamilə məhv edilmişdir. Məsələn, Cəbrayıl şəhərində yalnız yaşayış evlərinin dağıntılarıvə qəbiristanlıq qalmışdır.

Əsas hissə. Azərbaycanın sözü gedən bölgəsindətarixi memarlıq abidələri, o cümlədən qədim alban ibadət yerləri, orta əsr məscidləri, sarayları, yaşayış evləri və digər maddi-mədəniyyət obyektləri işğalçılar tərəfindən falsifikasiyaya məruz qalmış və ya dağıdılmışdır. Bütün bu vandalizm

halları, eləcə də memarlıq abidələrinin hissə və fraqmentlərinin erməni işğalçıları tərəfindən söküb aparılması Azərbaycanın mədəni irsinin bütün izlərinin məhv edilməsi və yerli əhalinin bu ərazilərə bir daha qayıtmaması məqsədlərinə xidmət etmişdir.

Keçən işğal illəri ərzində Ermənistan tez bir zamanda Qarabağın demoqrafik xarakterinin dəyişdirilməsi məqsədi ilə işğal etdikləri ərazilərin memarlıq-şəhərsalma istiqamətlərində nəinki heç bir yeni tədbirlər həyata keçirməmiş, hətta mövcud infrastrukturu da dağıtmışlar. Qarabağın işğal altında qalmış şəhər və digər yaşayış məntəqələrində ermənilər süni məskunlaşdırma siyasəti apararaq, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına Yaxın Şərq ölkələrindən ermənilər yerləşdirmişlər. Ümumilikdə işğal olunmuş yaşayış məntəqələrində 70-dən çox məscid dağıdılıb, muzeylər qarət edilib, şəhər infrastrukturunun çox hissəsi məhv edilmişdir.

Azərbaycanın işğaldan azad olunan rayonlarında maddi-mədəni irsin hazırkı vəziyyətinə dair. XX əsrin 90-cı illərindən başlayaraq, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana təcavüzü nəticəsində respublika torpaqlarının 20 % çox hissəsi, yəni 17 min kv.km-dən çox ərazisi işğal olunmuş və Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonun (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam), eləcə də Dağlıq Qarabağ regionundan uzaqda, Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndinin və Naxçıvanın Kərki kəndinin memarlıq abidələrinin qaydına qalmağa imkan tapılmamışdır. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərində milli-memarlıq dəyərlərini, dini və ibadət yerlərini və digər sənət əsərlərini, həmçinin Azərbaycan məxsus toponimlərini, epiqrafik yazıları tədricən məhv edərək və ya mənimsəyərək, mədəni-tarixi abidələrin qəsdən məhv edilməsini və ermənileşdirilməsini həyata keçirirmişlər. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçın-da 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. İşğaldan azad olan ərazilərdə zərər görən mədəni-tarixi abidələr sırasına siklopik memarlıq tikililəri, daş üzərində oymalar, antik qalalar, körpülər, məscidlər, türbələr və digər ibadət yerləri, su dəyirmanları, at-qoç fiqurları, kahalar və digəri daxildir.

Kəlbəcər rayonunda qədim sikkələr, qızıl və gümüş işləmələr, nadir daşlar, xalça və digər əl işlərindən ibarət unikal kolleksiyaya malik Tarix muzeyi, Şuşa muzeyləri, Laçın Tarix muzeyi, Ağdam Tarix muzeyi talan edilərək, sərgi eksponatları digər dövlətlərə daşınmışdır. Bu kimi vandalizm aktları işğal edilmiş ərazilərin Azərbaycana məxsus mədəni irsini dəyişmək üçün müxtəlif üsullarla müşayiət olunmuşdur. Məsələn, işğal illərində Laçın şəhərində erməni kilsəsinin tikintisi üçün buradakı uşaq musiqi məktəbi, kitabxana dağıdılmışdır.

Ermənilərin Azərbaycan maddi-mədəni irsinin saxtalaşdırması üçün istifadə etdiyi digər üsul tarixi abidələrin memarlıq ünsürlərinin ermənileşdirilməsidir. "Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan hökuməti müxtəlif bəhanələrlə məqsədli şəkildə xristianlıq dövrü abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişərək saxtalaşdırır ki, bu da kütləvi şəkildə Alban dövrü abidələrinin ilkin görkəminin itirilməsi və Alban mədəniyyətinin tədricən məhv edilərək tarixdən silinməsinə səbəb olur. Cənubi Qafqazda, xüsusən işğal olunmuş Azərbaycan torpaqlarında tarixi kökə və mədəniyyətə malik olmayan ermənilər süni şəkildə belə iyrənc yollarla özlərinə tarix yaradıb, dünyanı inandırmağa çalışırlar ki onlar bu torpağın əzəli və əbədi sakinləridir" [1].

Məsələn, Şuşa şəhərindəki Saatlı məscidinin (1883-ci il) və Xanlıq Muxtar karvansaralarının (XVIII əsr) üzərindəki İslam dininə aid elementlər və ərəb yazıları erməni xaçı və yazıları ilə əvəz edilmişdir. Yelisey məbədində saxlanılan Alban hökmdarı III Vaçaqanın məzarı və sövmə üzərindəki yazılar, eləcə dəXocavənddə Amaras, Ağdamda Govurqala, Kəlbəcərdə Xotəvəng, Laçında Ağoğlan, Kəlbəcərdə Həsənriz və digər alban abidələri üzərində albanlara məxsus yazılar silinərək və onlardan qalan əşyalar dağıdılraq, bu abidələrişğalçılar tərəfindən falsifikasıya edilmişdir.

Onu da qeyd edək ki, Azərbaycanda erməni falsifikasiyası hələ işğaldan xeyli əvvəl, XIX əsrdə Çar Rusiyası tərəfindən ermənilərin Azərbaycanda məskunlaşması siyasətindən sonra başlamış və sovetlər dövrüsürətlə davam etmişdir. XIX əsrdən etibarən çoxsaylı erməni ailələrinin Qarabağa köçürülməsi və Alban dövlətçiliyi və dininin bu bölgədə öz müstəqilliyinin itirməsi nəticəsində Cənubi Qafqazda xristian dövrünün maddi-mədəni dəyərləri saxtalaşdırılaraq ermənileşdirildi.

Belə ki, "Alban kilsələrindəki əlyazmalar erməni dilinə tərcümə edilərək, orijinallar məhv edildi, xristian abidələrinin interyerindəki yazıların və bədii daş nümunələrinin formaları dəyişdirildi" [1].

Qafqaz Albaniyasında xristian kilsələrinin və digər dini tikililərin,ziyarət yerlərinin qorunub saxlanması ilə yanaşı, burada İslam dininin yayılması nəticəsində həmin dövrə aid olan 2000-dən çox müxtəlif tarixi və mədəni abidələr, o cümlədən çoxsaylı məscid, karvansara və minarələr inşa olunmuşdur. Quruluşlarında milli özünəməxsusluq və müsəlman şəhərsalma mədəniyyəti biruzə verən Ağdərə, Kəlbəcər, Xocavənd, Şuşa, Xankəndi, Tərtər, Füzuli, Cəbrayıl, Ağcabədi, Laçın, Qubadlı, Zəngilan, Qarabağ şəhərləri məhz İslam dövründə formalaşmışlar. İşğal illəri ərzində erməni vandalları sözü gedən rayonların Alban abidələri ilə yanaşı qədim antik (Neolit və Tunc) və İslam dövrlərinin abidələrini, o cümlədən dini və xatirə tikililərini də fəal şəkildə dağıdaraq, məhv edirdilər. İşğal illərində Füzuli rayonunda Neolit və Tunc dövrünün Çıraqtəpə və Qaraqhacı kimi qədim yaşayış yerləri və rayonun Qoçəhmədli, Mərdmli, Qarğabazar kəndlərində məzarlıqlar dağıdılmışdır. Rayonun Babı kəndində yerləşən Şeyx Babı türbə kimpleksi (1273-1274-ci illər) 2020-ci il 29 sentyabr tarixində Qarabağda baş verən döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin törətdiyi geniş miqyaslı təxribatlar nəticəsində ciddi xəsarət almış, türbə kompleksindən bir türbə və zədələnmiş bir minarə salamat qalmışdır. Füzuli şəhərindəki Hacı Ələkbər məscidi (1889-1890-ci illər) 1993-cü ilin avqustunda şəhərin işğalı nəticəsində yararsız vəziyyətə düşmüşdür. Rayonun Qarğabazar kəndinin mərkəzində yerləşən Şah Abbas karvansarası (1681-ci il) kəndin erməni işğalından sonra mal-qara tövləsi kimi xidmət etmişdir. Merdinli kəndində yerləşən XIX əsrə aid məscidlər, Saracıq və Gorazıllı kəndlərindəki XIX əsr körpüləri, "Məşədi Həbib" hamamı (XIX əsr), həmçinin ondan çox kurqan tipli arxeoloji abidələr işğal altında qalaraq və erməni vandalları tərəfindən dağıdılaraq, məhv edilmişdir [2].

27 illik əsarətdən sonra erməni işğalçılarının əsarətindən azad olan Cəbrayıl rayonunun yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuşdur. Rayonun qədim Diri kəndində, Araz çayının sol sahilində, Diri dağlarının bir hissəsinin zirvəsində yerləşən və XII- XIV əsrə aid Qız qalası uzun müddət ermənilərin işğal etdikləri ərazidə yerləşmiş və işğalın ilk illərində bir tərəfi düşmən tərəfindən partladılmışdı və hal-hazırda dağılmış vəziyyətdədir. Şıxlar kəndində türbə (1308-ci il) və digər türbələr də yararsız vəziyyətə gətirilmişdir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dünya əhəmiyyətli abidələr sırasına Cəbrayıl rayonundakı Tunc dövrünün İmanqazantəpə və Qışlaq qum təpələri, rayonun Çələbilər kəndində məscid kompleksi və Xubyarlı kəndində qədim məzarlıq, orta əsrlərin 11 və 15 açırımlı Xudafərin körpüləri və Tunc dövrünün Niftalı kurqanları baxımsızlıq səbəbi ilə qəza vəziyyətinə düşmüşdür. Burada İslam abidələri olan məscidlər, minarələr və s. dağıdılıb yer üzərindən silinmişdir [4,5].

Respublikanın çoxəsrlik tarixini özündə əks etdirən Ağdam rayonunun 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı buranın müxtəlif dövrlərin nadir örnəkləri olan memarlıq abidələri - Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki dünya əhəmiyyətli daşınmaz tarixi-mədəni abidələr sırasına daxil olan XIV əsrə aid (1314-ci il) Qulu Musaoğlu türbəsi, Kəngərli kəndindəki türbə (XIV əsr) və daş abidələr, Papravənd kəndindəki XVII əsrə aid Xanoğlu türbəsi, XVIII əsrin məscidi, Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim türbələri, Ağdamın Abdal-Gülablı kəndindəki hamam binası (XX əsrin əvvəlləri) və b. bu kimi dəyərli tarixi- memarlıq abidələri qəsdən və baxımsızlıq üzündən qismən dağıdılmışdılar. Azərbaycanın ilk şəhər mədəniyyətini özündə əks etdirən nadir abidələr sırasına daxil olan . Orta Tunc dövrünə aid Üzərliktəpə yaşayış yeri ərazisində kurqanlar məhv edilmiş və abidənin ərazisi dəfələrlə yandırılaraq, hərbi təyinat məqsədi ilə istifadə edilmişdir. Ağdam rayonu ərazisində yerləşən Şahbulaq qalası (1751-1752-ci illər) 1993-cü il Qarabağ işğalına qədər qənaətbəxş şəkildə qorunub saxlanmışdır. Erməni işğalı zamanı qala ərazisində yerləşən məscid, hamam və bulaqlar dağıdılmış və qalanın sonrakı təmirindən sonra onun təyinatı dəyişərək kilsə kimi istifadə olunmuşdu. Ağdamın mərkəzində yerləşən Cümə məscidi (1868-1870-ci illər) və onun minarələri də erməni vandalları tərəfindən daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, epiqrafik yazıları silinmişdir. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Cümə məscidinin divarlarının saxlanması mümkün olmuşdur.


Ağdam rayonunun Əbdal və Gülablı kəndlərində yerləşən "Pənah xan İmarəti" məscidlər kompleksi (XVIII əsr), Uğurlu bəy məzarlığı erməni işğalçıları tərəfindən dağıdılmışdır. Ağdam şəhərində yerləşən Pənah xanın imarəti (1738-ci il) şəhər 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra, vandalizmə məruz qaldı (Şəkil 1). 2020-ci ildə Ağdamın erməni işğalından azad edilməsindən sonra bu sarayın bərpası üzlər tədbirlərə başlanmışdır [7-9].

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində, Tərtər çayının sol sahilində yerləşən, qədim Azərbaycan dövləti - Qafqaz Albaniyasının xristian memarlığının ən böyük abidələrindən olan və Qafqaz Albaniyasının süqutundan sonra Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi təyinatını daşıyan"Xudavəng" monastır kompleksi işğal illəri zamanı erməni abidəsi kimi dünyaya təqdim olunmuşdur. 2020-ci ildə işğal edilmiş torpaqlar Azərbaycana qaytarılmasından sonra ermənilərin rayonu tərk etdikləri zaman Xudavəng monastır kompleksdəki xristian incəsənət nümunələri, o cümlədən zınqırov və xaç daşları Ermənistana aparılmış və İrəvan muzeyinin eksponatları sırasına daxil olmuşdur. "Xudavəng" məbədi də dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Düşmən, abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox etmiş, beləliklə, tarixi saxtalaşdırmağa çalışmışdır. Onlar öz təbliğatlarında bu məbədini erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirlər".

Kəlbəcər rayonunda XIII-XIV əsrlərin Lev qalası (şəkil 2), Moz, Keşdağ və Yuxarı Ayrım kəndlərində qədim məzarlıqlar dağıdılmışdır. Rayonun Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə yerləşən Gəncəsər monastır kompleksi Qafqaz Albaniyası katolikoslarının iqamətgahı kimi fəaliyyət göstərməklə bərabər, burada Alban knyazları Cəlalilər və katolikoslar də dəfn ediliş və onların türbəsi də bu ərazidə yerləşmişdir. Ermənistan silahlı qüvvələrinin işğal illərində bu monastır dünyaya "Qanzasar" erməni monastır kompleksi kimi təqdim olumuşdur. 1993-cü ildə hava hücumu zamanı monastır ətrafındakı binalara ziyan dəymişdir. Birinci Qarabağ müharibəsindən sonra erməni iş adamlarının vəsaiti ilə Gəncəsər monastırında əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmiş, 2000–2002-ci illərdə isə kilsənin altarı, narteks və dam örtüyü yenidən qurulmuşdur. 2012-ci ildə ermənilər sözü gedən kompleksin divarlarının üzərini mərmər daşlarla üzləməyə başlamışdılar. Abidənin həyətində ermənilər tərəfindən aparılan tikinti işləri zamanı onun əvvəlki görkəmi ziyan görmüşdür.Rayonun VI əsrin Müqəddəs Yakob və XIII əsrin Xatirəvəng alban monastırları, Başlıbel və Otaqlı kəndlərindəki məscidlər (XVIII-XIX əsrlər), Seyid Əsədullah, Seyid Əhməd ağa ziyarətgahları ocağı və digər dini və xatirə tikililəri də müəyyən dağıntılara məruz qalmışlar.



Şəkil 1. Ağdam şəhərində Pənahəli xanın evi



Şəkil 2. Kəlbəcər rayonunda Lev qalası

Xocalı rayonunda aşkar edilən və inşa edildiyi dövrün ideologiyasını nümayiş etdirən maddi mədəniyyət eksponatları olan dolmenlər və digər qədim daş abidələr, eləcə də antik dövrə aid daş qutu qəbirlər, XIV əsrə aid kurqanlar, XIV əsrin türbələri erməni vandalizminə məruz qalmışlar, Qədim Xocalı-Gədəbəy mədəniyyətinin nümunəsi olan Xocalı kurqanlarını işğalçılar yer üzündən

silmişlər. Xocalının erməni işğalından sonra tapdaq altında qalan tarixi-dini memarlıq abidələri sırasına rayon ərazisindəki Əsgəran qalası (XVIII əsr), Şuşa, Çanaxçı, Xaşmaz, Xansıx, Armudlu kəndlərində yerləşən Alban məbədləri (X-XIII əsrlər), Xocalı kəndində Günbəz, Qoç və yəhərşəkilli qəbir daşları, Qədim tarixə malik olan Alban abidələri, Meşəli kəndində "Börgün qayasında olan Alban kilsəsi, "Yeddikilsə" Alban kilsəsi, "Durpasuda olan Alban kilsəsi, "Balaca suda olan Alban kilsəsi", Teymurləngin qalası ciddi ziyan görmüşdür [10,11].

Təkcə Qarabağın deyil, bütün Azərbaycanın tarixi-mədəni mərkəzi olan qədim Şuşa şəhərində ümumilikdə 850 memarlıq və arxeoloji abidə, onların arasında səkkiz bucaqlı türbə, Pənah xan (Şuşa) qalası (1752-ci il) və Gəncə, İrəvan və Ağoğlan qapıları, Xan qızı Natəvanın evi (XVIII əsr), Mamayı məscidi və bulağı, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarası, Culfalar məscidi (XIX əsr), Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Qarabağ xanlığının yaşayış evləri, ictimai tikililərin interyerlərində divar naxışlarının nümunələri və s. mövcud idi. Təkcə Qarabağın deyil, bütün Azərbaycanın tarixi-mədəni mərkəzi olan qədim Şuşa şəhəri işğal illərində tamamən boşalmış, buradakı məscidlər (Yuxarı və Aşağı Gövhərağa məscidləri) və digər mədəni-tarixi abidələr, o cümlədən Molla Pənah Vaqifin məqbərəsi, Natəvanın sarayı, Bülbülün evi, Üzeyir Hacıbəyovun evi dağıdılmış və talan edilmişdir. Şuşanın Ermənistan tərəfindən işğal müddətində ənənəvi olaraq 17 məhəllənin hər birində yerləşən 17 məscid dağıdılmış və 17 bulağın hamısı qurudulmuşdur. Ermənilər Mamayı bulağının görünüşünü dəyişmiş, ətrafındakı tikilinin üzərindəki ərəb yazılarını silib üstünü təzə hazırlanmış xaçlarla örtmüşdülər. 1854-cü ildə tikilən Şor bulaq abidəsinin fasadarı dəyişdirilib və yanında restoran binası tikilmişdir. Şuşanın Saatlı, Yuxarı və Aşağı Gövhərağa, Cümə məscidləri talan edilmiş, minarələri dağıdılmışdı. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərinin divarlarını salamat saxlamaq mümkün olmuşdur. Qarabağ xanlığının banisi Pənahəli xanın Şuşa şəhərinin tarixi mərkəzində yerləşən sarayı (XVIII əsr) da işğal illərində tamamilə dağıdılaraq, erməni vandalizminə məruz qalıb. Bu abidənin yalnız xarici divarları, qüllələrin bir hissəsi, bir də giriş tavanı salamat qalmışdır. O cümlədən Molla Pənah Vaqifin məqbərəsi, Natəvanın sarayı, Bülbülün, Üzeyir Hacıbəyovun evləri dağıdılmış və talan edilmişdir. Eləcə də Şuşada qədim qum və daş qəbiristanlıqlar dağıdılmışdır. 1992-ci ildə ermənilər Şuşanı işğal edən zaman Hacı Qulların malikanəsi(1849-ci il) top atəşi nəticəsində sarayın əhəmiyyətli hissəsi dağıdılmış, yalnız mülkün tağvari girişi olan əsas divarı və yuxarı mərtəbələrə qalxan pilləkənlər salamat qalmışdır (şək.3).

Mehmandarovlar ailəsinə məxsus Mehmandarovların malikanə kompleksinə (XVIII əsr) Şuşanın işğala məruz qaldığı illərdə ciddi ziyan dəymiş, kompleksin tikililərinin əksəriyyəti məhv edilmişdir (şək.4). Kompleks ərazisindəki Mehmandarovların kiçik yaşayış binasını ermənilər Şuşa tarix muzeyinə, məscidi isə Geologiya muzeyinə çevirmişlər. Hal-hazırda Mehmandarovların malikanə kompleksində və digər dağıdılan memarlıq abidələrində təmir-bərpa işləri aparılır.

Laçın rayonunun ərazisində yerləşən Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, o cümlədən dəXII-XIII əsrlərin Məlikəjdər türbəsi, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761-ci il), işğal altında qalan dəyərli memarlıq abidələridir. Ağoğlan çayının sahilində, Azərbaycan-Ermənistan sərhəd xətti yaxınlığında yerləşən V-VI əsrlərə aid Ağoğlan alban monastırının kilsəsi erməni diasporunun maliyyə dəstəyi ilə əsaslı təmir edilmişdir. Rayonun Qarıqışlaq kəndində məscid və Zabux kəndində qədim məzarlıq dağıdılaraq, yandırılmış və talan edilmişdir.

Zəngilan rayonunun Qıraq Muşlan, Malatkeşin, Babaylı və İkinci Ağalı kəndlərində məscidlər, Babaylı və Şərifan, Cahangirbəyli kəndlərində orta əsr məzarlıqları dağıdılmış və talan edilmişdir. Zəngilan şəhərində yerləşən "İmam Hüseyn" məscidi (XVII - XVIII əsrlər) hazırda erməni vandalları tərəfindən dağıdılmışdır. Rayonun Hacallı kəndindəki dairəvi bürc (XIV əsr),.Şərifan kəndindəki sərdabə (XIII—XIV əsrlər), Məmmədbəyli kəndindəki türbə (1305-ci il), Yenikənd kəndində XIV əsrə aid sərdabə, rayonun Bartaz kəndi ilə Vejnəli kəndi arasında yerləşən Bartaz qız qalası erməni vandalları tərəfindən müxtəlif səviyyədə zədə görmüşlər.



Şəkil 3. Şuşa şəhəri. Hacı Qulların mülkü



Şəkil 4. Şuşa şəhəri. Mehmandarovların malikanəsi

Qubadlı rayonu ərazisində onlarla tarixi-memarlıq abidəsi erməni vandalları tərəfindən dağıdılıb, yandırılıb, dini abidələr donuz tövləsi kimi istifadə olunmuşdur. Rayonun qədim daş dövrünə aid abidələri sırasında Bərgüşad çayı sahilində yerləşən mağaranı, yerli əhalinin dini inanc yeri olan "Ağ kaha" və "Qara kaha" mağaralarını, Balahəsənli, Əliquluuşağı kəndlərində və Gavur dərəsində mağara məbədlərini, Tunc dövrünə aid abidələr sırasında isə Muradxanlı kəndində "Maltəpə" yaşayış məskənini, Teymur Müskanlı və Əliquluuşağı kəndləri ətrafında siklopik qalaları, kurqanları, Qalaça, Qız qalası, Koroğlu qalası, Qubadlı şəhərinin mərkəzində "Xırman yeri" təpəsi və digər tarixi yerləri qeyd etmək olar. Bu tarixi abidələrin əksəriyyəti işğal illərində hərbi məntəqə kimi istifadə edilmiş və ya dağıdılmışdır. Qayalı və Məmər kəndlərində qədim məzarlıqlar və məscid qismən dağıdılmışdır, Dəmirçilər kəndindəki türbələr (XIII—XIV əsrlər), Hacı Bədəl körpüsü, Əliquluuşağı kəndində Laləzar körpüsü (1867-ci il) kimi abidələrin vəziyyəti işğaldan əvvəlki kimidir.

Xocavənd rayonunda yerləşən və Qafqaz Albaniyasının - Azərbaycanın xristian memarlığının dəyərli abidələrindən olan Amaras alban monastırı (IV əsr) hazırda Sülməramlı Qüvvələrinin nəzarəti altına keçmişdir. Rayonun digər çox saylı alban məbədləri, eləcə də Ağhullu, Kuropatkina, Düdükçü, Salakatin və Tuğ kəndlərindəki qədim məzarlıqlar və başqa maddi-mədəni abidələr erməni işğalçıları tərəfindən falsifikasiya və talan edilmişdir. Xocavənd rayonunun Azıx və Salakətin kəndləri arasında yerləşən dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. İşğal dövründə, 1999-cu ildən başlayaraq, həm erməni, həm də onların dəvət etdikləri digər ölkələrin arxeoloqları bu tarixi mağarada qeyri-qanuni tədqiqatlar həyata keçirmişlər və onu özünküləşdirməyə çalışmışlar. Qədim nadir abidələr sırasına daxil olan sözü gedən mağara işğal illərinin başlanğıcında ermənilərin hərbi sursat anbarı kimi də xidmət etmişdir [12].

Ermənistan Respublikası 1992-1993-cü illərdə Qarabağ ərazilərini işğal etdikdən sonra, qanunsuz olaraq, Azərbaycanın daşınmaz mədəniyyət abidələrinin memarlıq quruluşunda və interyerində də dəyişikliklər aparmış, divar yazılarını dəyişmiş, abidələrnin divarları üzərindəki çoxsaylı daş yazıları, eləcə də alban memarlığına məxsus bir sıra ornament və simvolları tamamən pozmuş, onlardan bəzilərini isə tanınmaz vəziyyətə salmışlar. Bu ərazilərdə erməni vandalları qanunsuz arxeoloji tədqiqatlar aparmış, dağılmış kəndlərdə yeni kilsələr tikmiş, toponimləri dəyişdirmişlər. Onlar planlı şəkildə Azərbaycanın madir maddi-mədəniyyət nümunələrini mənimsəyərək, ərazilərin ermənilşdirilməsini həyata keçirmişlər. İşğal edilən Azərbaycan ərazilərdəki yaşayış yerlərindən yüz minə yaxın muzey eksponatı, eləcə də bədii yazı nümunələri Ermənistana daşınmışdır.Laçın, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Şuşa və işğaldan azad olunmuş digər bölgələrdə dövlət qeydiyyatında olan mədəni-tarixi abidələrinin ümumi sayı, hazırkı vəziyyəti və bu abidələrə gətirilən xələl miqyasları olduqca böyükdür.

Hazırda Azərbaycanın tarixi-memarlıq abidələrinə və digər tarixi-mədəni irsinə qarşı erməni vandalizminin qabarıq şəkildə təzahürünün və bununla bağlı tarixi həqiqətlərin aşkarlanması, dünya ictimaiyyətində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv informasiyanın formalaşdırılması, təxirəsalınmaz həllini tələb edən erməni falsifikasıyasının sübut edilməsi aktual məsələlərdən biridir.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, erməni daşnak təşkilatlarının bu istiqamətdə apardıqları saxtalaşdırma tədbirləri, "ermənileşdirmə" prosesi və onunla bağlı digər aktual məsələlərin elmi baxımdan kompleks və sistemli tədqiqi və buna dair araşdırmaların aparılması prioritet istiqamət kimi ön plana çıxmalıdır.

Hərbi işğalın nəticəsi olaraq, ölkənin mədəni-tarixi irsinin qəsdən məhv edilmə siyasəti həm Azərbaycan, həm də dünya mədəniyyətinə maddi-mənəvi ziyan gətirmişdir. Şuşa və Qarabağın digər yaşayış məntəqələrinin mədəni görünüşünün və arxeoloji xüsusiyyətlərinin qəsdən dəyişdirilməsi və burada arxeloji qazıntıların aparılması Ermənistan işğalçılarının bu ərazilərin və abidələrin Azərbaycana məxsus olma xüsusiyyətlərinin aradan qaldırılması kimi məqsədli fəaliyyətin əyani şəkildə sübut edir. Qarabağın işğal olunmuş ərazilərində ermənilər tərəfindən saxtalaşdırılan memarlıq abidələrinin öz tarixlərinə qovuşması həllini gözləyən vacib məsələlərdəndir [13,14].

Mədəni-tarixi dəyərlərin mühafizəsi və bununla da vətandaşların mədəni hüquqlarının təmin olunması beynəlxalq hüquq normaları ilə tənzimlənir. "16.12 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14.05.1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19.121954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16.11.1972-ci il tarixli YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası, 2012-ci ildə Parisdə keçirilən YUNESKO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması" üzrə Komitəsinin səkkizinci sessiyasında qəbul edilmiş sənəd və başqa beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunub saxlanması vacibliyini irəli sürür".

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq müqavilələrə, eləcə də sözü gedən konvensiyalara (Haaqa Konvensiyasının Birinci və İkinci Protokollarına və b.) qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun formalaşdırmışdır. Həmin konvensiyaya əsasən hərbi münaqişələr zamanı hər bir dövlət öz və qarşı tərəfin ərazilərində yerləşən mədəni dəyərlərin mühafizəsini, memarlıq, sənət, tarixi abidələrin, arxeoloji qazıntıların və digər daşınan və daşınmaz mədəni irsin qorunmasını iştirakçı dövlətlərin vəzifəsi kimi qoyur. Qeyd etdiyimiz kimi, Ermənistan sözü gedən Haaqa və "Paris Konvensiyalarının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın maddi-mədəni sərvətlərini talamışdır.

İşğaldan azad olan Qarabağ ərazilərində təhlükəsizliyin təmin edilməsi, infrastrukturun yenilənməsi və demoqrafik problemlərin həllindən sonra, burada turizmin təşkili üçün bir sıra kompleks layihələrin həyata keçirilməsi real görünür. Həyata keçirilən işlər çərçivəsində bütün ölkə əhəmiyyətli abidələrin bərpasına başlanmışdır. Hələ işğaldan əvvəl turizm-rekreasiya sahəsindəki geniş inkişaf potensialı baxımından fərqlənən Qarabağ və ətraf rayonlar öz qədimliyinə və tarixi-mədəni abidələrin nadirliyinə görə tarixi turizm və etnoturizm zonası kimi inkişaf edə biləcək. Artıq işğaldan azad edilən ərazilərdə infrastrukturun qurulması tədbirlərinə başlanıb. Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində, bölgənin turizm imkanlarından faydalanma işlərinə başlanılıb. Qarabağ bölgəsinin işğaldan azad edilmiş rayonlarının tarixi abidələri, özünəməxsus memarlığı ilə burada yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Hazırkı dövrdə erməni işğalı nəticəsində təhlükəsizliyin təminatında yaranan problemlər, infrastrukturun dağıdılması səbəblərinə görə burada turizmin təşkili hələ ki mümkünsüzdür.

Nəticə. Azərbaycanın işğaldan azad edilən rayonlarında tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtulmuşdur. Erməni işğalçıları tərəfindən talan edilmiş regionun qədim və orta əsrlərdə inşa edilən nadir memarlıq abidələrinin erməni işğalçılarının tapdağı altında qalması, onlara Azərbaycanın tarixini saxtalaşdırmağa imkan vermişdir. Bu abidələr işğal müddətində ermənilər tərəfindən kütləvi surətdə dağıdılmış və ermənileşdirilmişdir. Aparılan tədqiqatlar Qarabağın memarlıq irsinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsinin olduğunu və ermənilərə aid olma iddialarının əsassız olduğunu göstərir. XX əsrin sonlarında Ermənistanın həyata keçirtdiyi münaqişə və müharibə nəticəsində Azərbaycanın sözü gedən bölgəsində memarlıq abidələrini yararsız vəziyyətə salmış, bir sıra hallarda isə (alban xristiyan məbədlərini və monastr komplekslərini) ermənileşdirmişdir. Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd və ermənilər tərəfindən işğal olunmuş zonada külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikintilər,

orta əsr qəbiristanlıqları, məscidlər və s. əksər müsəlman abidələrinin hazırkı vəziyyəti qənaətbəxş deyil. Azərbaycan dövləti tərəfindən bu rayonlarda həyata keçirilən böyük yenidənqurma, o cümlədən bərpa və quruculuq tədbirləri nəticəsində onların tarixi-mədəni irsi və o cümlədən də memarlıq abidələri bərpa olunacaq. Bu da erməni işğalından qurtulan Qarabağ və ətraf rayonlarınmemarlıq abidələrinin turizm marşrutuna qoşulmasına imkan yaradacaq.

Ədəbiyyat

1. Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı. 2005
2. Əhmədov Elçin. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı: Elmin İnkişafı Fondu. 2015
3. https://az.wikipedia.org/wiki/Mamay%C4%B1_bula%C4%9F%C4%B1#CITEREF%D0%90%D
4. https://azerforum.com/az/xerabete-cevrilmish-imaret-penaheli-xanin-sevimli-evi-qacarin-gecelediyi-mekan-xan-qizinin-dagilmish-mezari-reportaj
5. https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf
6. https://science.gov.az/az/news/open/15465
7. https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html
8. İsmayilov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələri.Bakı. 2016
9. Məmmədov Nahid. İşğal altındakı tarixi-dini abidələrimiz Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2015
10. Авалов Э. В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика. Баку. 1977
11. Мамедова, Г.М. (2004) Зодчество Кавказской Албании. Баку: Чашыоглу.
12. https://dalidag.az/manset/1006-kelbecerin-lev-qalasi-x-xv-yuzilliklerin-mirasi-dusmen-tapdaginda.html
13. https://az.wikipedia.org/wiki/Hac%C4%B1_Qulular%C4%B1n_m%C3%BClk%C3%BC
14. https://ona.az/az/medeniyyet/veten-muharibesinin-zirvesi-tarix-seher-medeniyyet-seher-fotosessiya-29319

http://doi.org/10.58225/sw.si.2022.1.83-88

1991-CI İLDƏ XOCALI ŞƏHƏRİ ƏRAZİSİNƏ TƏŞKİL EDİLMİŞ TƏLƏBƏ EKSPEDİSİYASI VƏ ONUN NƏTİCƏLƏRİ

Nurməmmədov Məhəmməd- baş müəllim, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, m.nurmamedov@mail.ru

Xülasə. Məqalə Xocalı və Ağdam rayonu ərazilərinə 1991- ci ildə bir qrup tələbə-memarın təşkil etdikləri ekspedisiya zamanı gördükləri işlərin nəticələrinə həsr olunmuşdur. Ekspedisiyanın əsas məqsədi AzİMU-nun şəhid tələbəsi Fuad Babayevin adına layihələndirilmiş xatirə bulağının tikintisi üçün yer seçmək, tikinti işlərini Xocalının yerli təşkilatları ilə razılaşdırmaqdan ibarət olmuşdur. Xocalıda olduqları müddət ərzində ekspedisiya üzvləri qarşılarına qoyduqları tapşırıqları yerinə yetirmişdir. Məqalədə eyni zamanda Xocalı ərazində və ətrafında yerləşmiş Xoca Əli türbəsi, Əsgəran qalası, Ağdamın Gülablı və Abdal Gülablı kəndləri ərazilərində yerləşən məscid və qədim hamam binalarına aid ekspedisiya üzvlərinin topladıqları materiallar təqdim edilir. Məqalənin sonunda nəticə olaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və qeyd olunan abidələrin bərpa və istifadəsi ilə bağlı təkliflər irəli sürülmüşdür.
Açar sözlər: Xocalı, Ağdam abidələri, Əsgəran qalası, Xocalı türbəsi, Gülablı abidələri, Abdal Gülablı

STUDENT EXPEDITION ORGANIZED IN KHOJALY CITY IN 1991 AND ITS RESULTS

Nurmammadov Mahammad- senior lecturer, department of Architectural structures and restoration of monuments, AzUAC, m.nurmamedov@mail.ru

Abstract. The article is dedicated to the results of the work done by a group of student-architects in 1991 in Khojaly and Aghdam regions. The main purpose of the expedition was to select a site for the construction of a memorial fountain designed in the name of the martyred student of AzUAC Fuad Babayev, to coordinate the construction work with local organizations of Khojaly. During their stay in Khojaly, the members of the expedition fulfilled the tasks set before them. The article also presents materials collected by members of the expedition on the Khoja Ali tomb, Askeran Fortress located in and around Khojaly, on mosques and ancient bathhouses located in Gulabli and Abdal Gulabli villages of Aghdam. At the end of the article, as a result, the tasks ahead were identified and suggestions were made for the restoration and use of these monuments.
Keywords: Khojaly, Aghdam monuments, Askeran fortress, Khojaly tomb, Gulabli monuments, Abdal Gulabli

Xocalı- Gədəbəy mədəniyyəti adı ilə tarixə düşmüş Azərbaycanın ecazkar güşəsi Xocalı şəhəri və eyniadlı rayonun ərazisi müxtəlif abidələrlə zəngindir. XIX əsrdə aşkar edilmiş son tunc və ilk dəmir dövrünə (e.ə.VIII- VII əsrlər) aid daş qutu və kurqanlar, qədim yaşayış qalıqları Xocalı rayonu ərazisini Cənubi Qafqazın ilk məskunlaşma ərazilərindən saymağa əsas verir. Rayonun ərazisi həmçinin memarlıq abidələri ilə də zəngindir. Həmin abidələri öyrənmək məqsədilə 1991- ci ildə universitetin Memarlıq fakultəsinin 106 qrup tələbələri tərəfindən Xocalı şəhəri ərazisinə ekspedisiya təşkil edilmişdir. Eyni zamanda həmin ekspedisiyanın qarşısında duran mühüm bir vəzifə universitetin ilk şəhid tələbəsi Fuad Babayevin xatirəsini əbədiləşdirmək məqsədilə Xocalı şəhərində bulağın tikintisi üçün yer seçmək və tikintiyə start vermək idi. Bu sətirlərin müəllifi tərəfindən həmin dövrdə bulağın layihəsi tərtib edilmiş, onun icrası üçün yerli sakinlər və tikinti təşkilatı ilə razılığa gəlinmişdi. Həmin dövrdə Xocalı erməni silahlı qüvvələri ilə mühasirə vəziyyətində idi. Ora avtomobil yolu demək olar ki, bağlanmışdı. Avtomobillə getmək istəyən insanların təhlükəsizliyinə heç kəs təminat vermirdi. Bu səbəbdən Xocalı şəhəri ilə yalnız helikopterlərlə əlaqə vardı. Helikopter Ağdam şəhərindən uçurdu. İki gün Ağdam müdafiə qərargahında gözlədikdən sonra nəhayət hərbi

rəhbərliyin icazəsi ilə bizə helikopterlə Xocalıya uçmağa icazə verildi. Nəhayət Xocalıya çatdıq. Lakin biz burada iki gün gözləməli idik. Yəni növbəti reys iki gündən sonra olacaqdı. Beləliklə, sakinlərdən birinin evində yerləşdikdən sonra proqrama uyğun fəaliyyətə başladıq. Yerli hakimiyyət qurumları ilə görüşüb Fuad Babayevin xatirəsini əbədiləşdirmək üçün tərtib etdiyimiz layihəni təqdim etdik. Layihə bəyənildi və onun tikintisi üçün yer seçdik. Bulağın tikintisinə təklifimizlə universitetin istehsalat təcrübəsi keçən tələbələri qoşulmalı idi. Bu səbəbdən Tikintinin təşkili kafedrasının müəllimi Arif Abbasov da bizimlə birlikdə səfərdə iştirak edirdi. Təəssüf ki, məlum faciəli hadisələr səbəbindən həmin layihəni reallaşdırmaq mümkün olmadı.



Şəkil 1. Xocalı şəhərində 1991- ci ildə şəhəri müdafiəçiləri ilə

İki gün ərzində ekspedisiya üzvləri şəhər ərazisində və ətrafında yerləşən abidələrə baxış keçirmişdi. Xocalı qəbiristanlığında yerləşən, yerli sakinlər arasında "Xoca Əli günbəzi" kimi tanınan türbədə ölçmə və fotofiksasiya işləri aparıldı. Qeyd etmək lazımdır ki, sakinlərindən aldığımız məlumatlara əsasən Xocalı məskənin adı məhz türbənin adından yaranmışdır. Elmi ədəbiyyatda türbənin XIV əsrə aid olduğu qeyd olunsa da, həmin tarixin hansı mənbədən qaynaqlandığı hələlik məlum deyil. Türbə Qar- qar çayın sağ sahilində, qədim qəbiristanlıq ərazisində yerləşir. Abidənin oniki bucaqlı quruluşda olması və giriş qapısının çox qabarıq, lakin sadə daşdan oyma ornamentlə işlənməsi, Xocalı türbəsini dövrün başqa abidələrindən xeyli fərqləndirir [1,s.37]. Prof. R.Əmənzadənin təsnifatına əsasən isə tikili təkkameralı, qapalı kompozisiyalı tipoloji qrupa aid edilə bilər [2, s.94]. Plan quruluşu sadə biçimli olan tikilinin xarici tərəfdən üzlük daşları tökülmüşdür. Örtük konstruksiyası da gövdəyə uyğun şəkildə onikibucaqlı piramida formasında qeydə alınmışdır. Abidə divarlarının möhkəm daxili hörgüsü və keyfiyyətli yapışdırıcısı hesabına həcm tamlığını itirməmişdir. Örtüyün piramidal konstruksiyasında ciddi çatlar və aşınmalar müşahidə edilsə də, dağılmamış qalır. Türbənin ətrafında müxtəlif qəbirüstü sənduqələr qeydə alınmışdı. Lakin həmin sənduqələrin türbəyə aid olub olmadığı gələcək tədqiqatların və uyğun ixtisaslı mütəxəssislərin iştirakı ilə aparıla bilər. Əgər həmin daşlar işğalçılar tərəfindən məhv edilməmişdir...

Ağdamdan Xocalıya helikopterlə uçarkən gördüyümüz digər abidə Əsgəran qalası oldu. Pənahəli xan tərəfindən Qarqar çayının sağ və sol sahillərində tikdirilmiş qala əzəmətli görünüşü və memarlıq həlli ilə Qarabağın müdafiə tikililəri sırasında xüsusi yer tutur. Həmin dövrdə abidənin ən son foto şəklini çəkmək bəlkə də bizə müyəssər olmuşdu.

Bu möhtəşəm memarlıq abidəsi Əsgəran şəhərinin cənubunda yerləşir. Qala XVIII əsrin ən maraqlı və iri müdafiə qurğusudur. Əsgəran qalası Qar-qarçay vadisini bağlayaraq, yalnız keçid kimi çay məcrasına nəzarət edir. Əsgəran qalası çayın sol və sağ sahilində yerləşən iki istehkamdan

ibarətdir. Qalanın sağ sahildə yerləşən hissəsi 250 m uzunluqda iki qat divardan ibarətdir. Həmin divarın qıraq nöqtələrində iki düzbucaqlı bürc və orta hissədə də iki bürc yerləşir. İkiqat divar bürcləri birləşdirən divarüstü keçidin təhlükəsizliyinə imkan verir. Həmçinin, düşmənin çay istiqamətindən hücumunun qarşısını alır.



Şəkil 2. Xocalı şəhəri ərazisində yerləşən Xoca Əli türbəsi (XIV əsr)

Sol sahildə yerləşən qalanın digər hissəsi isə düzbucaqlı və trapesiya formalı istehkamların qovuşmasından yaranmış bir müdafiə qurğusudur. Qala divarlarının hündürlüyü bəzi yerlərdə 9 m və qalınlığı 2 m qədər çatır. Bu divarlar doğranmış çay daşından tikilmişdir [5, s.322].

.




Şəkil 3. Xocalıya uçarkən Əsgəran qalasının görünüşü 1991- ci il

Əsgəran qalası Azərbaycan ərazisində ən son inşa edilmiş müdafiə tikilisi sayıla bilər. Coğrafi mövqeyinə və plan quruluşuna görə qala bənzəri olmayan bir tikilidir. Daha qədim müdafiə qalaları ənənəvi olaraq əlçatmaz dağlarda inşa edilirdi, şəhər qalalarının funksiyası şəhərlərin mühafizəsi idi. Azərbaycan ərazisində mövcud olan digər müdafiə qurğuları tipi erkən orta əsrlərdə tikilmiş müdafiə sədləri sayılır. Əsgəran qalası bu mənada maraqlı quruluşa malikdir. Qalanın Qar-qarçayın sol sahilində yerləşən trapesiya formalı hissəsi dağ qalaları ənənələrinə uyğun hər tərəfdən divarla əhatələnmiş qapalı məkanlı dağ qalalarını xatırladır. Qalanın bu hissəsində ənənələrə uyğun olaraq içqala da nəzərdə tutulmuşdur.

Qalanın sağ sahildə yerləşən hissəsi isə sədd funksiyası daşıyır. Çay boyu vadi ərazindən keçidi nəzarətdə saxlamaq məqsədilə tikilmiş sədd Gilgilçay, Beşbarmaq sadlərindən miqyasına görə dəfələrlə kiçik olsa da, daşıdığı funksiya eynidir. Yəni Əsgəran qalası quruluşuna görə həm dağ qalaları, həm də müdafiə səddi elementlərini özündə daşıyırƏsgəran qalası Azərbaycan ərazisində

ən son inşa edilmiş müdafiə tikilisi sayıla bilər. Coğrafi mövqeyinə və plan quruluşuna görə qala bənzəri olmayan bir tikilidir. Daha qədim müdafiə qalaları ənənəvi olaraq əlçatmaz dağlarda inşa edilirdi, şəhər qalalarının funksiyası şəhərlərin mühafizəsi idi. Azərbaycan ərazisində mövcud olan digər müdafiə qurğuları tipi erkən orta əsrlərdə tikilmiş müdafiə sədləri sayılır. Əsgəran qalası bu mənada maraqlı quruluşa malikdir. Qalanın Qar-qarçayın sol sahilində yerləşən trapesiya formalı hissəsi dağ qalaları ənənələrinə uyğun hər tərəfdən divarla əhatələnmiş qapalı məkanlı dağ qalalarını xatırladır. Qalanın bu hissəsində ənənələrə uyğun olaraq içqala da nəzərdə tutulmuşdur.

Qalanın sağ sahildə yerləşən hissəsi isə sədd funksiyası daşıyır. Çay boyu vadi ərazindən keçidi nəzarətdə saxlamaq məqsədilə tikilmiş sədd Gilgilçay, Beşbarmaq sadlərindən miqyasına görə dəfələrlə kiçik olsa da, daşıdığı funksiya eynidir. Yəni Əsgəran qalası quruluşuna görə həm dağ qalaları, həm də müdafiə səddi elementlərini özündə daşıyırYerli çay daşından tikilmiş bu qala ətraf təbiətlə çox gözəl əlaqələndirilmiş və eyni zamanda ərazinin əlverişli şəraitindən müdafiə üçün yüksək ustalıqla istifadə edilmişdir [5, s.62]. Xocalıya səfər zamanı ekspedisiya üzvləri tərəfindən Abdal Gülablı və Gülablı kəndlərindəki məscid və hamamlara da baxış keçirilmişdir. Ölçü və fotofiksasiya işləri aparılmışdır. Abdal Gülablı məscidi kəndin yuxarısındakı təpənin üzərində yerləşir. Kənddə olarkən həmin dövrdə kəndin məşhur ağsaqqallarından sayılan Əzizxan kişi ilə tanışlığımız və onunla söhbətlərimiz əsnasında kəndin tarixi və buradakı abidələr haqqında ətraflı məlumat aldıq. Əzizxan kişinin söylədiyinə görə Abdal Gülablı kəndindəki məscid 1874-cü ildə memar Qarabağı Kərbəlayi Səfixanın layihəsi əsasında tikilmişdir. Şuşa və Ağdam məscidlərinin müəllifi olan Kərbəlayi Səfixanın dəsti-xətti bu məsciddə də özünü büruzə verir. Kvadrat biçimli dörd sütunlu olmaqla bu məscidlərin həm memarlıq-planlaşma, həm də konstruktiv quruluşu bir bənzərlik təşkil edir. Son məlumatlara əsasən işğal dövründə Abdal Gülablı kəndindəki bütün tikililər dağıdılmış yalnız məscid qismən salamat qalmışdır [6].



Şəkil 4. Gülablı kəndi ərazisində yerləşən hamamın planı (XIX əsr)

Gülablı kəndi ilə tanışlıq zamanı kəndin yaxınlığında tikilmiş hamam diqqətimizi cəlb etdi. Hamam binası yarı hissəsi torpaqda, digər hissəsi yer səthindən yuxarıda yerləşir. Bina istismar edilmirdi və baxımsızlıqdan ciddi aşınmalara məruz qalmışdı. Prof. R.Əmənzadənin təsnifat sisteminə görə çoxkameralı tipoloji qrupa aid edilən bina sadə düzbucaqlı plana malikdir. Abidənin vizual tədqiqi göstərdi ki, binanın şərq fasadı boyunca sonralar üç yeni otaq tikilmişdir. Bu otaqlar hamama giriş və anbar funksiyaları daşıyır. Binanın şimal tərəfində isə kürsülük mərtəbəsi və üzərində istirahət üçün nəzərdə tutulmuş otaq nəzərdə tutulmuşdur. XIX əsrin bir sıra analoji abidələrində olduğu kimi geyinib-soyunma otağı səkkiz tərəfli quruluşda olub, divarlar çatma tağlarla örtük səviyyəsinə qədər qaldırılmış və günbəzlə tamamlanmışdır. Hörgü materialı kimi yerli qaya daşlarından istifadə edilmişdir. Gülablı hamamının plan quruluşunun Şüşa hamamlarına bənzərliyi bu tikilinin də Kərbəlayi Səfixan Qarabağinin dəsti-xəttinin olmasını mülahizə etməyə əsas verir.

Gülablı kəndində olarkən əldə etdiyimiz məlumatlardan biri də kənd ərazisində mövcud olan su kəhrizi qurğusu oldu. Kənd ağsaqqalı Əzizxan kişinin (1991-ci ildə) verdiyi məlumata əsasən 350 il əvvəl inşa edilmiş kəhriz kənd sakinlərini içməli su ilə təmin edirmiş. Lakin sovet hakimiyyəti illərində baxımsız qalan bu qurğu sıradan çıxmış və 1980-ci illərin sonunda kənd sakinləri tərəfindən iməcilik yolu ilə yenidən bərpa edilmişdi. Təəssüf ki, 30 illik işğal dövründə həmin kəhriz də əsir abidə həyatını yaşamışdır.

Xocalıda, Ağdamda iki sutka ərzində keçirdiyimiz ekspedisiya müddətinin azlığına baxmayaraq, qrup üzvləri arxeoloji-etnoqrafik materialların toplanmasına da vaxt ayırmışdır. həm Xocalı şəhərində, həm də olduğumuz kəndlərdə sakinlər tərəfindən tapılmış təsadüfi tapıntılar toplanmışdır. Xüsusilə, Ağdamın Ergi kəndində olarkən kənd sakini Məhəmməd Haciyevin təsərrüfat işləri zamanı tunc dövrünə aid tapdığı müxtəlif saxsı qab nümunələri həmin şəxsdən qəbul edilərək Bakıya gətirilmiş və AMEA-nın arxeologiya və etnoqrafiya institutuna təqdim edilmişdi.

Beləliklə, 31 il əvvəl şəxsi təşəbbüs əsasında baş tutmuş bu səfər zamanı həm layihə-tikinti işlərinin planlaşdırılması, eyni zamanda Xocalı və Ağdamın bir neçə kəndinin mədəni irsinin öyrənilməsi sahəsində qeyd olunan işlər görülmüşdür. Təəssüf ki, ekspedisiyanın baş tutduğu dövrdən qısa müddət sonra Xocalı, daha sonra Ağdam işğal edildi və Fuad Babayevin xatirə bulağının tikintisi, abidələrlə bağlı gələcək illər üçün planlaşdırdığımız işləri rellaşdıra bilmədik.

Lakin "ədalət gec-tez yerin tapır" deyirlər. Ordumuz tərəfindən işğal altında olan ərazilərin azad edilməsi həmin planları reallarşdırmaq üçün imkanlar açır. Xocalı ilə bağlı məsələyə gəldikdə isə qətiyyətlə inanırıq ki, həmin şəhərə qayıtmağımıza da az müddət qalmışdır. O an çatdıqda, həmin ərazilərə əliboş yox real niyyət və planlarla qayıtmağımız faydalı olardı. Bu səbəbdən 1991-ci ildə yarımçıq qalmış işlərimizin davamı olaraq aşağıdakı məsələlərin yerinə yetirilməsini məqsədəuyğun sayırıq:

- Xocalı şəhərində 1991-ci ildə tikintisi planlaşdırılmış şəhid Fuad Babayevin adına xatirə bulağının tikintisini tamamlamaq.

- Xocalı məzarlığında yerləşən "Xoca Əli" türbəsi ərazisində geniş tədqiqat işlərinin aparılmasını təşkil etmək. Bu işlərə abidənin müayinəsi, arxeoloji qazıntı işləri, dəqiq ölçü işləri, bərpa layihəsi, sahənin abadlıq layihəsi və s. kimi işlər aid edilməlidir. Eyni zamanda abidə ərazisindən keçməklə turizm marşrutunun sxemi təklif edilə bilər.

- Əsgəran qalasında geniş miqyaslı tədqiqat işlərinin aparılması da fikrimizcə, vacib işlərdən sayılmalıdır. Memarlıq-planlaşma həllinin unikallığı, texniki vəziyyətinin yaxşı qalması bu abidənin bərpa edilərək Pənahəli Xanın yadigarı kimi ictimaiyyətə təqdim edilməsini zəruri edir. Abidənin coğrafi mövqeyi və nəqliyyat baxımdan əlçatanlığı burada müxtəlif mədəni tədbirlərin keçirilməsinə imkan verir. Beləliklə, uzun illər Əsgəran sakinlərinin erməni abidəsi kimi dünyaya təqdim etdikləri bu qalanın əsil sahibinin azərbaycanlılar olduğunu göstərmiş olarıq.

- Ağdam rayonunun Gülablı və Abdal Gülablı kəndləri ərazisində yerləşən məscid və hamamın dövlət qeydiyyatına alınması üçün əlaqədar qurumlar qarşısında məsələ qaldırmaq qarşıda duran vəzifələrdəndir. İşğaldan azad edilmiş həmin abidələrin mövcud vəziyyətini təhlil etmək və ölçü işləri aparmaq vacib işlərdən sayılmalıdır. Abidələrin son monitorinqi göstərir ki, məscidin günbəz örtüyü dağılmışdır. Hamamın isə ön hissəsində sonralar tikilmiş otaqların və ikimərtəbəli istirahət otağının örtük konstruksiyası tam dağılmış, divarlar isə qismən salamat qalmışdır. Bu abidələrin bərpa edilərək əvvəlki funksiyasına uyğun istifadə edilməsi həm gələcək sakinlər üçün faydalı olardı, həm də abidələrin aktiv həyata qovuşmasına kömək edərdi.

Ümumiyyətlə, Xocalıya qayıdış hər bir azərbaycan vətəndaşı kimi biz memarlar üçün böyük rəmzi məna daşıyır. Dünya elminə Xocalı-Gədəbəy mədəniyyəti adı ilə daxil olmuş bu tarixi məskən təəssüf ki, 30 il əvvəl insanlıq tarixinə Xocalı genosidi kimi də daxil oldu. Xocalıya qayıdış və şəhərin dirçəlişi sahəsində görüləcək işlərin ana xəttində erməni cinayətlərinin izi hər sahədə vurğulanmalıdır. Alman faşistlərinin Avropa ölkələri və o zamankı Sovet İttifaqı ərazilərində törətdikləri cinayətlərin izləri bu günə qədər qorunub, insanlara təqdim edildiyi kimi Xocalı şəhəri ərazisində də belə muzeylər yaradılmalıdır. İnsanlıq tarixinə Osvensium, Buhenvald, Xolokost muzeyləri kimi Xocalı muzeyi də daxil edilməlidir. Bu muzey həm Xocalının şəhər planında o

zamankı dağıntıların izlərinin saxlanması kimi əksini tapmalıdır, həm də ayrıca müasir binalar kompleksi kimi düşünülməlidir. Fikrimizcə, tələbələrin həm kurs layihələrinin, həm də diplom işlərinin aktual mövzularından biri Xocalı genosidi muzeyi olmalıdır.

Xülasə. Azərbaycanın Qarabağ regionunun "yaşıl" enerji zonasına çevrilməsi haqqında sərancamın həyata keçirilməsi nöqteyi-nəzərdən bərpa olunan enerji mənbələrinin səmərəli istifadəsi perspektivlərinin təhlili aktual məsələdir. Məqalə Qarabağın Qubadlı bölgəsinin iqlim parametrləri üçün günəş panellərinin tətbiqi perspektivləri və istilik enerjisi istehsal gücünün hesablama programı vasitəsi ilə qiymətləndirilməsinə həsr olunub. Hesabat nümunəsinə əsasən Qubadlı bölgəsində 50m^2 sahədə yerləşdirilən Hevelius SCM-12-180-58 (Polşa istehsalı) borulu günəş panellərin sayı 12 ədəd, f.i.ə. 70%, vakuum borularının istilik itkisi əmsalı 0.5Vt/m^2 olduqda günəş radiasiyasının vasitəsi ilə alınan istilik enerjisinin orta miqdarı 1625 kVt/m^2 və ümumi istilik enerjisi istehsalı- 14938 kVt·st/il təşkil edir. Aparılan hesabat metodikası hər hansı bir region üçün tətbiq oluna bilər.
Açar sözlər: Qarabağ, "yaşıl" enerji zonası, günəş panelləri, bərpa olunan enerji resursları, Qubadlı

THERMAL ENERGY PRODUCTION OF SOLAR PANELS FOR KARABAKH "GREEN" ENERGY ZONE

Mammadov Nurmammad- PhD, ass. prof., department of Construction of engineering systems and facilities, AzUAC, orcid ID 0000-0002-0508-0439, nurmammad.mammadov@azmiu.edu.az
Akbarova Samira- PhD, ass. prof., department of Construction of engineering systems and facilities, AzUAC, orcid ID 0000-0002-0916-7734, samira.akbarova@azmiu.edu.az


Abstract. The analysis of the prospects for the efficient use of renewable energy sources is relevant from the point of view of the implementation of the order on the transformation of the Karabakh region of Azerbaijan into a "green" energy zone. The article is devoted to the application of solar panels for climatic parameters of the Gubadli region of Karabakh and the assessment of thermal energy production capacity through a calculation program. The number of Hevelius SCM-12-180-58 (made in Poland) tubular panels located in an area of 50 m^2 in the Gubadli region is 12, performance coefficient is 70%, the heat loss coefficient of vacuum pipes is 0.5 W/m^2, the average amount of thermal energy obtained by solar radiation is 1625 kW/m^2 and the total heat production is 14837 kW/h per year. The methodology can be applied to any region.
Keywords: Karabakh, "Green" energy zone, solar panels, renewable energy resources, Gubadli

Giriş. Karbohidrogen ehtiyatlarının tükənməsi və eyni zamanda onların ətraf mühitə mənfi təsiri bütün dünyada olduğu kimi Azərbaycanda da bərpa olunan enerji istehlakı zərurətini gündəmə gətirdi [1]. Bu istiqamətdə ölkədə müsbət təcrübə artıq var və günəş, külək, digər ekoloji təmiz enerji mənbələrindən istifadə edilir. Bütün dünyada gedən "yaşıl" enerji təchizatı tendensiyası Azərbaycanda da sürətlə inkişaf etdirilir, baxmayaraq ki dövlət iqtisadiyyatı hələ də neft-qaz sektorundan əhəmiyyətli dərəcə də asılıdır [2]. Azərbaycanın bərpa olunan enerji sahəsində imkanları çox genişdir. Azərbaycan öz gələcək enerji təchizatı siyasətini məhz "yaşıl" enerji istehlakına yönəltməkdə görür. Neft və təbii qaz hasilatının inkişafında tarixən dünyada əsas yerlərdən birini tutan Azərbaycan qarşıya məqsəd qoyub ki bərpa olunan enerji mənbələrindən enerji istehlakını 2050-ci ilə qədər 50%-ə çatdırsın. Azərbaycanda "yaşıl" enerji potensialı- bərpa olunan enerji mənbələrinin ümumi potensialının böyük hissəsini günəş enerjisi təşkil edir- 5000 meqavat, ikinci

yerdə külək enerjisi durur 4500 meqavat, qalanı isə biokütlə- 1500 meqavat, geotermal enerji- 800 meqavat və kiçik çayların enerji potensialı- 350 meqavatdır. Məqalə Qarabağ "yaşıl" enerji zonası Qubadlı bölgəsi iqlim göstəriciləri üçün günəş panellərinin istehsal gücünün qiymətləndirilməsinə həsr olunub. Hesabatlar "Helios- house" proqram-kalkulyator vasitəsi ilə aparılıb.

Əsas hissə. Hal- hazırda işğaldan azad edilmiş ərazilərin enerji təchizatı inkişafı layihələrinə xüsusi diqqət yetirilir. Qarabağ bölgəsi bərpa olunan enerji mənbələri ilə zəngin potensiala malik olan bir regiondur. 2021-ci ildən işğaldan azad edilmiş Qarabağ torpaqlarında "yaşıl" enerji zonası layihələri işlənməyə başlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Qarabağ bölgəsi "yaşıl" enerji zonası kimi bütün dünya üçün nümunəvi olmalıdır. Ən müasir enerji səmərəli və iqtisadi cəhətdən rasional texnologiyalardan və "yaşıl" enerjidən –günəş, külək, su və s. istifadə olunacaq. Burada ilkin qiymətləndirmələrə görə, bu ərazilər 4500 meqavatdan çox günəş enerjisi, 550 meqavata qədər külək enerjisi potensialına malikdir [3].

Bu regionda günəş enerjisi potensialı yüksək olan 8 bölgə seçilib, belə ki günəş elektrik stansiyalarının tikintisi nöqteyi-nəzərindən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonları ən əlverişli sayılırlar. Kəlbəcər və Laçın rayonlarında həm də külək enerjisi istehsalı inkişaf etdiriləcək. Bu rayonların dağlıq hissələrində küləyin orta illik sürəti 7-8 m/s-ə çatır. Laçın və Kəlbəcər rayonlarında külək enerjisini istehsal edən stansiyalar tətbiq ediləcək. Qarabağ regionu həm də su ehtiyatları ilə zəngindir ki, bu da hidroenergetikanın inkişafı üçün əlverişli amildir. Azərbaycanda yerli su ehtiyatlarının 25%-i məhz Qarabağda formalaşır. Xəkəri, Bazarçay, Tərtər kimi çaylarda və onlara aid ayrılmalarda elektrik stansiyalarının tikilməsi məqsədəuyğundur [4]. Kəlbəcərdə 3000 m^3/gün, Şuşada isə 400 m^3/gün isti su ehtiyatlarından da yaxın gələcəkdə istifadəsi üzrə layihələr işlənilir. Şəkil 1-də günəş enerjisindən istifadə növləri və imkanları [5], şəkil 2-də isə Azərbaycanda geniş tətbiq olunan fotovoltaik və borulu panellər göstərilib [6]. Günəş enerjisindən həm elektrik və həm də isti suyun alınması üçün istifadə olunur.



Şəkil 1. Günəş enerjisində istifadə üsulları və növləri

Aşağı temperaturlu günəş isti su istehsalı texnologiyası ən geniş tətbiq olunan üsuldur. Bu məqsədlər üçün müxtəlif növ borulu günəş kollektorları istifadə olunur. Günəş enerjisi tətbiqinin ən sadə və ucuz yolu məişətdə istifadə olunan suyunun günəş kollektorları vasitəsi ilə qızdırılmasıdır [7-9]. Günəş kollektorları günəş istilik enerjisini toplamaq üçün cihazlardır. Effektivliyi 15-25% olan günəş fotovoltaik panellərindən fərqli olaraq günəş kollektorları 90%-ə qədər səmərəlilik əmsalına

malikdirlər. Günəş istilik panelləri yaz, yay və payız aylarında binalarda isti suyun istənilən temperaturda alınması üçün öhdəsindən uğurla gələ bilir. Qışda binanı qızdırmaq üçün adətən başqa istilik mənbələrindən yəni əlavə istilik enerjisindən tələb olunur. Buna görə də, adətən günəş su qızdırıcıları yaz-yay-payız dövrlərində işləmək üçün nəzərdə tutulur və qışda əsas sistemə əlavə olaraq istifadə olunur. Günəş isti su sistemi günəş kollektoru, nasos qrupu, idarəetmə cihazları, su toplayıcı anbar çəni, birləşdirici elementlər və fitinqlər, genişləndirici çən və birləşdirici kəmərlərdən ibarətdir (şəkil 3a, 4). Qeyd etmək lazımdır ki, günəş qızdırıcıları ənənəvi istilik təchizatı sistemləri ilə mütləq müşahidə olunur. İsti suyun istehsalı üçün istifadə olunan borulu vakuum günəş su qızdırıcılarının hesabatı müxtəlif hesabat proqramları vasitəsi aparıla bilər.



Şəkil 2. Günəş panelləri: borulu vakuumlu və fotovoltaik

Günəş isti su sisteminin enerji hasilatının hesablanması Qubadlı şəhəri üçün aparılıb. İlkin hesabat göstəriciləri kimi istehlakçının ümumi isti su tələbatı götürülür və hesabat proqramı üzərindən aparılır. Hesabat mərhələləri bunlardır [10-11]:

1. günəş su qızdırıcı panelləri miqdarının təyini;
2. günəş radiasiyasına görə istilik miqdarının hesablanması;
3. günəş enerjisindən alınan isti su göstəriciləri.

Hevelius SCM-12 180-58 markalı Polşa istehsalı olan panellər tətbiq olunub.

İlkin məlumatlar- panellərin texniki göstəriciləri:

- bir paneldə olan vakuum boruların sayı- 12 ədəd,
- vakuum boruların diametri- 0.058m,
- vakuum boruların uzunluğu- 1.8m,
- bir panelin səmərəli sahəsi-1.9m^2,
- 1 m^2 düşən vakuum boruların sayı- 6 əd.,
- günəş panelinin səmərəliliyi- 70%,
- vakuum borularının istilik itkisi əmsalını- 0.5Vt/m^2,
- avadanlığın quraşdırılması üçün planlaşdırılan yerin ümumi sahəsi- 50 m^2.



İlkin göstəricilər əsasında alınan layihə parametrləri:

- faktiki quraşdırılan panellərin sayı- 12 əd,
- soyuq suyun giriş temperaturu- 10°C,
- isti suyun çıxış temperaturu- 50°C.

İsti suya tələbatın hesabat nəticələri:

- günəş radiasiyasının illik orta miqdarı- 1625 kVt/m^2
- aylar üzrə günəş radiasiyasının orta miqdarı, kVt·st/m^2, cədvəl 1-də göstərilib,
- avadanlığın quraşdırılması üçün planlaşdırılan yerin səmərəli sahəsi- 22 m^2,
- isti suyun orta istehsalı gün ərzində- 2000 l/gün,
- isti suyun orta istehsal miqdarı il boyu- 730 m^3/il,
- ümumi istilik enerjisi istehsalı- 14938 kVt·st/il.


Beləliklə, aparılan hesabatlar göstərir ki günəş panelləri vasitəsi ilə binaların isti su tələbatını ödəmək mümkündür. Şəkil 5-də aylar üzrə istilik enerjisi istehsalı qrafiki göstərilib.

a-  b- 

Şəkil 3. İsti suyun alınması üçün günəş panellərinin prinsipial iş sxemi:
a-borulu vakuumlu, b-fotovoltaik
a-1-panel, 2- istilik mübadiləedici, 3- nasos qrupu, 4- kontroller
b-1-panel, 2-elektrik enerjisi, 3- kontroller, 4- akkumulyator batareyası (AKB),
5- invertor, 6- sabit elektrik toku, 7- dəyişən elektrik toku

Cədvəl 1. Hevelius SCM-12 58/1800 günəş panellinin texniki göstəriciləri

Göstəricilər	Ölçü vahidi	Miqdarı
Növü	-	Vakuumlu borulu
Həndəsi ölçüləri AxBxCxD	mm	1050x1990x1740x925
Çəkisi	kq	40.7
Bir kollektorda boruların sayı	ədəd	12
Bir borunun uzunluğu	mm	1800
Borunun xarıcı diametri	mm	58
Borunun daxili diametri	mm	47
Bir panelin ümumi sahəsi	m^2	1.9
Panelin absorbsiya əmsalı	-	0.92
Panelin istehsal gücü	Vt	744
Daxili istilik borusunun diametri	mm	8
Mayenin durğunluq temperaturu	^0C	225.4
İstilik daşıyıcısının həcmi	litr	1.2
Maksimal işçi təzyiq	bar	12



Şəkil 4. Borulu vakuumlu günəş panelinin bir borusunun sxemi
1- mis istilik borusu, 2- buxar şəkilli işçi maye, 3- alüminium qabıqğalı borucuq,
4- işçi maye, 5- daxili rezervuar, 6- soyudulmuş işçi maye buxar şəklində kondensasiya olur və istilik borusunun dibinə qayıdır, sonra dövr təkrarlanır, 7- isti buxar istilik borusunun yuxarı hissəsinə toplanır

Cədvəl 2. Aylar üzrə günəş radiasiyasının orta miqdarı kVt·st/m^2

Ay	Günəş radiasiyasının orta miqdarı	Ay	Günəş radiasiyasının orta miqdarı
Yanvar	3.32	İyul	5.7
Fevral	3.8	Avqust	5.48
Mart	4.15	Sentyabr	5.18
Aprel	4.49	Oktyabr	4.38
May	4.96	Noyabr	3.51
İyun	5.6	Dekabr	2.81
Orta aylıq göstərici- 4.45			

Cədvəl 3. Aylar üzrə günəş panelləri tərəfindən gözlənilən isti su istehsalı, litr

Ay	İsti su miqdarı	Ay	İsti su miqdarı
Yanvar	654	İyul	1127
Fevral	751	Avqust	1082
Mart	820	Sentyabr	1023
Aprel	886	Oktyabr	865
May	980	Noyabr	693
İyun	1107	Dekabr	553
Orta aylıq göstərici- 878 litr			

Nəticə. Hal- hazırda Qarabağ regionunun "yaşıl" enerji zonasına çevrilməsi haqqında sərancamın həyata keçirilməsi nöqteyi-nəzərdən bərpa olunan enerji mənbələrindən səmərəli istifadəsi üçün bir neçə layihələr işlənilir. Məqalə Qarabağ "yaşıl" enerji zonası Qubadlı bölgəsinin iqlim parametrləri üçün günəş panellərinin tətbiqi perspektivləri və istehsal gücünün hesablama programı vasitəsi ilə qiymətləndirilməsinə həsr olunub. Borulu vakuum kollektorların tətbiqi ilə isti suyun alınması hesabat metodikası üç əsas mərhələdən ibarətdir:

•mövcud ərazidə quraşdırıla bilən günəş panellərinin optimal sayı təyin olunur;

•aylar üzrə günəş radiasiyasının orta miqdarı kVt·st/m^2 hesablanır

•panellərin cəhətlənməsindən, yerləşmə bucağından asılı olaraq istilik enerjisi miqdarı proqramla hesablanır.

Cədvəl 4. Aylar üzrə günəş panellərinin enerji istehsalı kVt·st/sutka

Ay	Günəş radiasiyasının orta miqdarı	Ay	Günəş radiasiyasının orta miqdarı
Yanvar	32.64	İyul	50.55
Fevral	37.12	Avqust	47.46
Mart	39.86	Sentyabr	43.23
Aprel	43.47	Oktyabr	37.88
May	46.99	Noyabr	30.89
İyun	51.50	Dekabr	29.30
Orta aylıq göstərici- 40.93			



Şəkil 5. Aylar üzrə istilik enerjisi istehsalı, kVt·st/sutka

Alınan nəticələr binaların isti su ehtiyaclarını günəş panelləri vasitəsi ilə ödənilməsinin ilkin qiymətləndirməsini aparmağa imkan verir. Hesabat nümunəsinə əsasən Qubadlı bölgəsində 50m^2 sahədə yerləşdirilən Hevelius SCM-12 180-58 (Polşa) panellərin sayı 12 ədəd, F.İ.Ə. 70%, vakuum borularının istilik itkisi əmsalı 0.5W/m^2 olduqda günəş radiasiyasının vasitəsi ilə alınan istilik enerjisinin orta miqdarı 1625 kVt/m^2 və ümumi istilik enerjisi istehsalı- 14938 kVt·st/il təşkil edir.

Ədəbiyyat

1. Yusifov J. Overview of the кenewable energy Developments in Azerbaijan. 2018. United Nation Framework Convention on Climate UNFCCC: Methodological issues while processing second national communications: Greenhouse Gas Inventories. Buenos Aires: FCCC/SBSTA, 1998
2. The State Program on Use of Alternative and Renewable Energy Sources in Azerbaijan. 2017. Availableonline:http://www.inogate.org/documents/AZ_2004_10_21_ State_Program_on_Renewable_Energy_of_Azerbaijan_Republic.pdf
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474
4.https://azvision.az/news/265046/-dunya-yasil-enerjiye-kecir--boyuk-potensiala-malik-azerbaycanda-hansi-isler-gorulur---.html
5. Cəlilov M.F. Alternativ regenerativ enerji sistemləri. Dərslik. Bakı: NPM "Təhsil", 409s. 2009
6.Германович В., Туриллин А. Альтернативные источники энергии. Практические конструкции по использованию энергии ветра, солнца, воды, земли, биомассы. – СПб.: Наука и техника, 320 с. 2011
7. Gorjian Shiva. An introduction to the renewable energy resources. 2019
8. https://www.helios-house.ru/on-line-kalkulyator.html
9. Böer, K.W., ed. Advances in Solar Energy. Vol. 12. Boulder, Colo.: American Solar Energy Society. 2008
10. Eliasson, B. Renewable Energy: Status and Prospects. Växjö, Sweden: ABB Environmental Affairs. 2018
11. Fisch, M.N. A Review of Large-Scale Solar Heating Systems in Europe. Solar Energy 63 (6): 355–66. 2012

http://doi.org/10.58225/sw.si.2022.1.203-205

QARABAĞ ŞƏHƏRLƏRİNİN MÜASİR SİMASI

Vəliyeva Sədaqət- memarlıq üzrə fəlsəfə doktoru, dosent, AzMİU, sadagat1950@gmail.com

Xülasə. Qarabağın, Azərbaycanın dilbər guşəsinə çevrilməsi üçün orada məskunlaşan əhalinin həyatını komfortlu və təhlükəsiz edən, qarşılıqlı informasiya və kommunikativ texnologiyalar vasitəsilə şəhərdaxili proseslərin idarə edilməsini sadələşdirən ,,ağıllı şəhər"lərin (yəni Smart City) yaranmasına böyük ehtiyac vardır. Bu gün bir çox inkişaf etmiş ölkələr ağıllı şəhər və ağıllı kənd layihələrinə üstünlük verir. Azərbaycanda ,,ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi Prezident İlham Əliyevin 2020 ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmlş ,,Açiq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Plani"nda öz əksini tapmışdır.Prezident İlham Əliyev çıxışlarından birində: ,,Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı 10-larla şirkətlə görüşlərim olur.Onların böyük əksəriyyəti texnoloji şirkətlərlir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var,hansı müsbət inkişaf var,.və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə ,,ağıllı şəhər", ,,ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir."- deyə bəyan etmişdir..

Açar sözlər: Qarabağ, memarlıq abidələri, ,,ağıllı şəhər", ,,ağıllı kənd" konsepsiyası

Şairlərin təbiri ilə desək,Qarabağ Azərbaycanın dilbər guşələrindən olub , qədim zamanlardan sivilizaciya və mədəniyyətin beşiyidir. Bu diyar hələ b. e.ə.iv əsrdə Qafqaz Albaniyası dövlətinin əmələ gəlməsi ilə tarixə iz salmışdır. Qafqaz Albaniyasının memarlığı şərq xristian memarlığına uyğun olan qanunauyğunluqları özündə əks etdirərək inkişaf etmişdir.Bu gün ermənı qəsbkarlarının Azərbaycana qarşı törətdiyi işğalçı fəaliyyəti əsasən Qarabağ xristian abidələrinin mənimsənilib ermənileşdirilməsi missiyasını yerinə yönəlmişdir [1]. Böyük Ermənistan xülyası ilə yaşayan üzdən iraq qonşularımızin,bu gün xarabalıqlara çevirdikləri Azərbaycan şəhərlərini zəngin tarixi informasiya daşiyan mədəni irsdən təcrid edərək yer üzündən silməyə çalışmışlar.Bu baxımdan zərər çəkmiş şəhərlərin sözün əsl mənasında bərpası deyil, yenidən salınmasına ehtiyac var. Belə ki, müasir dövrün bütün tələblərinə cavab verən şəhərlərin salinmasina, işğaldan azad edilmiş ərazilərdə yerlə yeksan edilmiş yaşayış məntəqələrinin dirçəldilməsi probleminin həlli ilə başlamaq bu günün ümdə məsələsidir.

Bu məqsədlə, Qarabağin,doğrudan da, Azərbaycanin dilbər guşəsinə çevrilməsi üçün orada məskunlaşan əhalinin həyatını komfortlu və təhlükəsiz edən,qarşılıqlı informasiya və kommunikativ texnologiyalar vasitəsilə şəhərdaxili proseslərin idarə edilməsini sadələşdirən ,,ağıllı şəhər"lərin-Smart Siti yaranmasına böyük ehtiyac var.Bu gün bir çox inkişaf etmiş ölkələr ağıllı şəhər və ağıllı kənd layihələrinə üstünlük verir.Azərbaycanda ,,ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi Prezident İlham Əliyevin 2020 ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmlş ,,Açiq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Plani"nda öz əksini tapmışdır.Prezident İlham Əliyev çıxışlarından birində: ,,Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı 10-larla şirkətlə görüşlərim olur.Onların böyük əksəriyyəti texnoloji şirkətlərlir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var,hansı müsbət inkişaf var,.və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə ,,ağıllı şəhər", ,,ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir."- deyə bəyan etmişdir.

Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalmanin həyata keçirilməsı istiqamətində bir çox işlərə start verilmişdir. Belə şəhərlərin salınmasına məhz Qarabağdan başlanması vaxtı ilə öz doğma torpaqlarından didərgin düşmüş qaçqın və köçgünlərin böyük ruh yüksəkliyi ilə geri qayıtmasına təkan vermiş olar.Hal-hazırda yeni texnologiyalardan və alternativ enerji mənbələrindən istifadə

edilməsi haqqında ölkə prezidentinin fikrini təsdiqləyərək qeyd etmək lazımdır ki,Qarabağ ərazisi Naxçıvan muxtar respublikasından sonra, insolyasiya üzrə ikinci yeri tutduğunu nəzərə alsaq, respublikamızda ‘’ağıllı şəhərlərin’’ məhz burada inşasına başlamaqla erməni təcəvüzkarlarına layiqli cavab vermiş olarıq.Həm də nəzərdən qaçırmayaq ki, bu ərazidə beynəlxalq aeroportların tikilməsi, istər-istəməz salınacaq şəhərlərdə də yeni informasiya və kommunikativ texnologiyaların qarşılıqlı sistemlərinin həyata keçirilməsı ilə yerinə düşərli olar. Smart- texnologiyalarla yaşamaq həm sadə ,həm də komfortlu olacaq ki, bu çox vacib məsələlərdən biridir. BMT-nin 2018-ci il nəticələrinə görə 55% əhali bu gün şəhərlərdə yaşayır. 2030-cu il üçün isə yerin 60%-dən çox əhalisi 500000-dən artıq olan şəhərlərdə yaşayacaq. Urbanizasiya prosesini saxlamaq mümkün deyil, buna görə də komfort və təhlükəsizliyi təmin etmək, yeni şəhərlərin ağıllı idarə edilməsi,smart texnologiyalardan istifadə bu gün böyük əhəmiyyət kəsb edir. İlk növbədə qeyd etmək vacibdir ki, ölkə prezidenti azad edilmiş ərazilərdə şəhər və kəndlərin –sıfırdan qurulacağından söhbət açaraq “Smart-siti,Smart-villaqe”,”ağıllı şəhər və kənd” layihələrinin konsepsiyalarının hazirlanması haqqinda 19 aprel 2021- ci ildə Sərəncam vermişdir [3].

Bu məqsədlə 2 iyun,2021-ci ildə Prezident tərəfindən Zəngilan rayonunun Ağalı kəndinin ərazisində ,,ağıllı kənd,, layihəsinin təməli qoyulmuşdur və tikinti işləri davam etdirilir [5]. Burada hər şey sıfırdan qurulmağa başladığından nəticədə texnoloji qaydalara əməl edilən mükəmməl görünüş və infrastruktur əmələ gələcəkdir.Ümumiyyətlə, ,,Ağıllı kənd” və ,,ağıllı şəhər” elə bir ərazidir ki, orada məlumat toplamaq üçün müxtəlif elektronik və rəqəmsal metodlardan , sensorlardan istifadə edilir.Toplanmış məlumatlardan əldə edilən anlayışlar aktivlərin və resurslarin səmərəli istifadəsinə yönəldilir.Nümunə olaraq,elektrik enerjisi və su sərfiyyatının elektronlaşdirilması, müəyyən edilmiş yerlərdə toplanmasını göstərmək olar. Bu konsepsiyada Əşyaların interneti, Süni intellekt, Blokçeyn və s. texnologiyalar tətbiq olunur. Bu texnologiyalar əsasında müəyyən komponentlər formalaşdırılır. Nəticədə əhali müəyyən proqram təminatından istifadə edərək həm öz kommunal tarixçəsini görür, həm də ödənişlərini edə bilir.Bundan əlavə,aidiyyətli dövlət qurumları bütün məlumat bazasında yığılan informasiya əsasında optimallaşdırma işləri aparmaq imkanı qazanır.Bütün bu elektronlaşdırma tətbiqi tibb və nəqliyyat sahəsi üçün keçərlidir. O cümlədən,şəhərlərin ekoloji mühitinin qorunmasında havanın yoxlanılması üçün naqilsiz sensor şəbəkələri vasitəsi ilə şəhər ərazisində çirklənməni elektron xəritə üzərindən müşahidə mümkündür.,,Ağıllı şəhər”in digər şəhərlərdən fərqi bütün infrastrukturun elektronlaşdırıiması və böyük məlumat bazasının yaradılmasıdır [6]. Bu məlumat toplusu əsasında bütün şəhər üzrə xərclərin və əhalinin yaşayış keyfiyyəti üzrə səmərəlilik artırılır. Müasir dünyada ağıllı şəhərlərin yaradılması qloballaşmanın və 4-cü sənaye inqilabının yaratdığı bir çox problemləri də aradan qaldıra bilər.Həmçinin şəhərlərin daha davamlı, əhatəli və təhlükəsiz hala gətirmək Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərindən biri olaraq müəyyənləşmişdir. ,,Ağıllı şəhər “ və ,,Ağıllı kənd” texnologiyaları vətəndaşların sağlamlığıng və rifahını yaxşılaşdırmaq gücünə sahib olmaqla bərabər iqtisadi inkişaf üçün yeni yollar təqdim edir. Bərpa olunan ərazilərdə bulud əsaslı texnologiyaların tətbiqi həmin reqionun bərpa prosesini sürətləndirə və onu texnoinvestorlar üçün maraqlı edər.İşğaldan azad edilmiş ərazilərdə ,,smart-city” layihələrinin tətbiqi həmin reqionu bu günün tələbi olan innovativ ,texnologiya əsaslı investisiyaların axınını sürıtləndirməklə ,eyni zamanda növbəti mərhələdə Qarabağda innovasiya mərkəzləri və texnoparkların yaradılması üçün fundemental əsas rolunu oynaya bilər. Bulud əsaslı informasiya texnologiyaları tətbiqetmələri təkcə insan həyatını deyil, həmçinin ərazidə idarəetməsini də asanlaşdıra bilər.Hazırda dünyanın müxtəlif yerlərində - Sinqapur, BƏƏ(Dubay), ABŞ(Boston), Hollandiya(Amsterdam), İngiltərə(London), Norveç (Oslo), Danimarkada(Kopenhagen) ,,Smart City” layihəsi həyata keçirilir.Bu şəhərlərin turizm mərkəzlərindən olduğunu nəzərə alsaq ,,,ağıllı şəhər” texnologiyaları böyük potensiala malik Qarabağ reqionunda turizm sektorunu inkişaf etdirmək üçün əlavə imkanlar yarada bilər.,,Ağıllı kənd” platformasında texnologiya vasitəsilə ucqar ərazilərdə davamlı inkişaf hədəflərinin həyata keçirilməsini müşahidə etmək mümkündür.Bu model vasitəsilə hökumətlər ictimai xidmətlərin səmərəliliyi və təhlükəsızliyini artırmağı ,maliyyə xərclərini azaltmağı şəffağlığı və yaxşı idarəetməni təmin etməyi hədəfləyir.Qeyd etdiyimiz kimi ,,,Ağıllı kənd

“ layihələri dünyanın müxtəlif ölkələrində reallaşdırılır. Bu layihənin tətbiqində əsas məqsədlərdən biri insanların kənd yerlərindən şəhər yerlərinə axınının qarşısını almaqdır . ,,Ağıllı kənd” layihəsinin ikinci məqsədi insanlara kənddə pul qazanmaq imkanının yaradılmasıdır [6] Üçüncü məqam isə ondan ibarətdir ki, hər bir ölkə vətəndaşının olduğu kimi ,kənd sakinlərinin də dövlət xidmətlərinə çıxışı olmalıdır. Türkiyədə ,,Vodafon”un dəstəyi ilə yaradılan ,,Ağıllı köy” layihəsi, Qazaxıstanda ,,Villic Qazaxıstan”, Ruandada ,,Smart villic” proyekti, Ukraynada ,,Avtonom ağıllı kənd” ,Almaniyada ,.Ağıllı kənd” layihəsi icra edilib və bu yerlərdə ağıllı ticarət və loqistika , ağıllı enerji üsullarından istifadə edilir. ,,Ağıllı şəhər” və ,,Ağıllı kənd,, layihəsi Azərbaycanın şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi,habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsində dayanıqlı inkişafın əsas prioritetlərindəndir.İşğaldan azad olunmuş şəhər və kəndlərdə bu layihənin tətbiqi ilə orada göstəriləcək xidmətlərin növbəti inkişaf mərhələsinə keçid üçün zəmin yaradılır.Bu məqsədlə Zəngilan rayonunun Ağalı kəndinin ərazisində hal-hazırda inşasına başlanmış pilot layihə 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərını birləşdirir.Qeyd etmək lazımdır ki, 50-dən çox ev, ictimai binalar istifadəyə hazırdır, 200-dən çox fərdi ev nəzərdə tutulmuşdur. Layihənin icrası 5 komponent: yaşayış. İstehsal, sosiolojı obyektlər, ağılı kənd təsərrüfatı və alternatıv enerji mənbələri üzrə aparılır [2] ,,Ağıllı kənd” layihəsi gələcəkdə onun reqionun digər ərazilərində də uğurla tətbiq edilməsinə zəmin yaradacaq. Layihənin yerinə yetirilməsinə 10,8 milyon manat vəsait ayrılmlşdır.Bu layihələrin geniş vüsət alması məqsədı ilə yeni nəqliyyat, yeni rabitə və yüksək texnologiyalar üzrə müəyyən qurumlarlarla söhbət aparılaraq məlumatlar əldə edilmiş və internet səhifələrində işıqlandırılmışd



Şəkil 1. Ağalı kəndinin Ağıllı kənd layihəsindən görüntülər

Qeyd etmək vacibdir ki, havanın keyfiyyətinin ölçülməsı, enerji paylama və nəqliyyat sistemlərində ağıllı infrastrukturun tətbiqi, həmçin təhsildə məlumat sistemlərindən istifadə, bina və küçə infrastruktur planlaşdırma metodları ilə suyun paylanması, çirkab sularının toplanması və bu kimi məsələlər ağıllı şəhərlərin inşasında mütəşəkkil şəkildə, az zaman fasiləsində həll oluna bilər.

Hal- hazırda Qarabağ şəhər və kəndlərinin demək oiar ki, tamamilə yer üzündən silinməsi problemi ,,ağıllı şəhər və kənd, layihələrinin bu ərazidə yerinə yetirilməsini bir növ tələb edir.

Ədəbiyyat

1. Мамедова Г.Г. Исторические города Азербайджана и проблемы их охраны XX əsr və tarixi islam şəhərləri XXI CENTURY Historic Islamic Cities Beynəlxalq konfrans Baki/Baku-2007.
2. С.Б Эко аспекты регулирования градостроительной деятельности cyberleninka.r
3. http://e-qanun.az.>frame work.
4. https://science.qov.az.news.open.
5. https://ovqat.com.>iqtisadiyyat>.
6. https://azvision.az.>news>,,Smart Village,,-Dünyanın ən ,.ağıllı,. layihəsi Qarabağda-Azvision

http://doi.org/10.58225/sw.si.2022.1.206-208

QARABAĞDA ŞƏHƏRSALMA İŞLƏRİNDƏ KLİNKER KƏRPİCİNİN TƏTBİQİ

Bağırov Bulud– baş müəllim, Nəqliyyat və Logistika kafedrası, AzMİU, arpachay@bk.ru
Şirinzadə İradə- professor, Materialşünaslıq kafedrası, AzMİU, i.shirinzade@azmiu.edu.az

Xülasə. Qarabağda gedən quruculuq işlərində mühüm əhmiyyət kəsb edən materiallardan biri də parkların, istirahət evlərinin, ictimai yerlərin döşəməsinin üzlənməsində istifadə olunan klinker kərpicidir. Klinker kərpicinin hazırlanması üçün keramik şixta tərkibi və onun alınma texnologiyası işlənib hazırlanmışdır. Təcrübi yolla müəyyən edilmişdir ki, yüksək inşaat-texniki xassələrə malik klinker kərpicinın hazırlanmasında ölkə ərazisində geniş yayılmış gillərə alümosilikat tərkibli ultradispers əlavələrdən istifadə etmək məqsədəuyğundur. Bu növ əlavə kimi şamot və uçucu küllərin istifadəsinin mümkünlüyü təcrübi yolla sübut olunmuşdur. Eyni zamanda, keramik kütlənin qəlibləmə üsulunun da materialın xassələrinə təsiri tədqiq olunmuş və müəyyən olunmuşdur ki, yarımquru qəlibləmə üsulu klinkerin alınmasında daha effektlidir.
Açar sözlər: klinker kərpici, şamot, uçucu kül, üzlük material, qəlibləmə üsulu

CLINKER IN URBAN DEVELOPMENT WORKS IN KARABAKH APPLICATION OF BRICK

Baghirov Bulud -senior lecturer, department of Transport and Logistics, AzUAC, arpachay@bk.ru
Shirinzade Irada-prof, department of Material Science, AzUAC, i.shirinzade@azmiu.edu.az

Abstract One of the most important materials in the construction work in Karabakh is clinker brick, which is used to cover the floors of parks, holiday homes and public places. The composition of ceramic mortar and its production technology have been developed for the production of clinker bricks. It has been experimentally determined that in the production of clinker bricks with high construction and technical ceramic mass on the properties of the material was studied and it was determined that the semi-dry molding method is more effective in obtaining clinker.
Keywords: clinker brick, fireclay, volatile ash, facing material, molding method

Giriş. 30 ilə yaxın bir işğal müddətində düşmən ordusu Qarabağı tamamilə dağıtmış, sözün əsil mənasında yalnız ruhların dolaşa biləcəyi bir məkana çevirmişlər. İşğaldan azad olduğu vaxtdan bütün Qarabağda abadlıq-quruculuq işlərinə başlanmış, nəqliyyat-komunikasiya sistemi qurulur, inzibati binalar, ticarət obyektləri, ictimai-iaşə obyektləri, otellərin tikilməsi planlaşdırılır. Burada həmçinin Ağdam Sənaye Parkının yaradılması nəzərdə tutlmuşdur. Bundan başqa şəhər nəqliyyat-komunikasiya sistemi qurulacaq, inzibati binalar, ticarət obyektləri, ictimai-iaşə obyektləri, otellər tikiləcək, parklar salınacaq və Ağdam Sənaye Parkı yaradılacaq [1]. Deməli, Ağdam hələ uzun müddət tikinti meydançası olacaqdır.

Əsas hissə. Yüksək sürətlə həyata keçirilən bu tikinti işləri yüksək keyfiyyətli inşaat materialları və yüksək ixtisaslı inşaatçı kadrlar olmadan mümkün deyildir. Fikrimizcə, gələcəyin möhtəşəm şəhərinin çox böyük peşəkarlıqla və sevgi ilə hazırlanan baş planını həyata keçirmək üçün tikinti işləri də eyni səviyyədə aparılmalıdır. İstənilən tikinti obyektinin müvəffəqiyyəti 3 amildən asılıdır: düzgün layihə, keyfiyyətli materiallar və işin keyfiyyətli icrası. Əlbəttə ki, burada keyfiyyətli material əsas amildir.

Yüksək sürətlə həyata keçirilən bu tikinti işləri yüksək keyfiyyətli inşaat materialları və yüksək ixtisaslı inşaatçı kadrlar olmadan mümkün deyildir. Fikrimizcə, istənilən tikinti obyektinin müvəffəqiyyəti 3 amildən asılıdır: düzgün layihə, keyfiyyətli materiallar və işin keyfiyyətli icrası. Əlbəttə ki, burada keyfiyyətli material əsas amildir. Şəhərlərin salınmasında mühüm əhmiyyət kəsb edən materiallardan biri də parkların, istirahət evlərinin, ictimai yerlərin döşəməsinin üzlənməsində

istifadə olunan üzlük materiallardır. Klinker kərpici parkların, istirahət mərkəzlərinin həyətlərinin döşənməsində istifadə olunan ən keyfiyyətli üzlük materiallarından biridir. Həmçinin yaşayış binalarında istilik sərfinə qənaət etmək kimi aktual bir problemin həlli yollarından biri də yüksək istilik izolyasiya xassələrinə malik olan üzlük kərpiclərin istifadəsidir. Məlumdur ki, binaların üzlənməsində istifadə olunan materiallar elə seçilməlidir ki, onlar kifayət qədər möhkəm və şaxtayadavamlı olsun, eyni zamanda istilikkeçirmələri də aşağı olsun. Əlbəttə, keramik materialların yaratdığı istilik və komfortu heç bir təbii və süni daş materialı yarada bilməz. Klinker kərpici binaların fasadlarının və tratuarların üzlənməsində müvəffəqiyyətlə tətbiq olunan üzlük materiallardan biridir [1, 2].

Yüksək keyfiyyətli klinker kərpicinin alınması xammalların tərkibindən, onların texnoloji xassələrindən, istifadə olunan yavanlaşdırıcı əlavənin növündən və miqdarından, həmçinin də texnoloji amillərdən (keramik kütlənin qəliblənməsindən, qurudulma və yandırılma rejimindən) də asılıdır [3]. Keramik kütlənin hazırlanma üsulunun klinker kərpicinin xassələrinə təsirinin öyrənilməsində nümunələr 1100^0C-də yandırılmışdır.

Cədvəl 1. Keramik kütlənin hazırlanma üsulunun klinker kərpicinin fiziki-mexaniki xassələrinə təsiri

Göstəricilər	**Plastik kütlə**		**Yarımquru toz kütlə**	
	90% gil+ 10% şamot	**80%gil+ 20% şamot**	**90%gil+10% şamot**	**80%gil+20% şamot**
Sıxılmada möhkəmlik həddi, MPa	28	35	45	50
Orta sıxlıq, kq/m^3	1710	1800	1950	2100
Suhopma, %	14.0	12	6.0	3.6
Suyadavamlıq əmsalı	0.82	0.85	0.91	0.97

Keramik materiallar texnologiyasında keramik kütlənin nəmliyinin aşağı salınması yüksək keyfiyyətli materialın alınmasına təsir edən mühüm amillərdən biridir. Nəmliyin azaldılmasının keramik materialların alınmasında iki müsbət cəhəti var: nəmliyin azaldılması o buxarlandıqdan sonra məsamələrin əmələ gəlməsini azaldır, eyni zamanda yüksək nəmlikli keramik kütlənin preslənməsi texnoloji cəhətdən çətinlik törədir.

Keramik kütlənin yarımquru presləmə üsulu ilə qəliblənməsinin daha effektiv olduğunu təcrübi yolla təsdiq etdikdən sonra şamotla yanaşı uçucu küllərin də istifadəsinin klinker kərpicinin xassələrinə təsiri öyrənilmişdir və nəticələr cədvəl 2-də verilmişdir.

Cədvəl 2. Keramik kütlənin xassələrinin tərkibindəki komponentlərin miqdarından asılılığı

s/s	**Keramik kütlə tərkibi, %**			**Sıxılmada möhkəmlik həddi, MPa**	**Suhopması, %**
	gil	**şamot**	**uçucu kül**		
1	100	-	-	13.0	16.0
2	97	2	1	18.0	14.5
3	95	3	2	20.7	12.5
4	90	5	5	33.5	8.8
5	85	8	7	43.0	6.2
6	80	10	10	53.0	5.0
7	76	12	12	40.0	8.3

Cədvəl 2-dən də göründüyü kimi çox qiymətli material olan şamotun bir hissəsinin sənaye tullantısı olan uçucu küllə əvəz edilməsi materialın fiziki-mexaniki xassələrinə heç də təsir etməmişdir. Hətta şamotun 10%-nin uçucu küllə əvəz edilməsi keramik materialın möhkəmliyini müəyyən qədər artırmışdır.

Nəticə. Qarabağda yeni şəhərlərin və kəndlərin salınmasında klinker kərpici

Ədəbiyyat

1. https://ru.wikipedia.org/wiki/Клинкерный_кирпич
2. Гузман, И. Я. Химическая технология керамики / И. Я. Гузмана. - М.: ООО РИФ Стройматериалы, 496 с. 2003
3. Кирпич керамический клинкерный для мощения. Межгосударственный стандарт. ГОСТ 32311-2012. Технический условия. 2014. https://docs.cntd.ru/document/1200107183

http://doi.org/10.58225/sw.si.2022.1.209-212

NƏQLİYYATIN TARİXİ ABİDƏLƏRİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ YARATDIĞI PROBLEMLƏR

Çobanzadə İsmayıl- t.e.n., dosent, Nəqliyyat və loqistika kafedrası, AzMİU, ismayilcobanzade54@gmail.com

Xülasə. Məqalədə dünyada nəqliyyat vasitələrinin (xüsusən də avtomobil padkının) sayının durmadan artmasının ətraf mühitə vurduğu, lakin texniki ədəbiyyatda öz əksini geniş tapmayan məsələdən gedir.Yəni nəqliyyatın tarixi abidələrin qorunması sahəsində yaratdığı problemlərdən. Konkret olaraq məqalədə nəqliyyat axınlarının hərəkəti prosesində yaranan dalğalanmaların dayaq səthi vasitəsilə ətrafda olan tikinti obyektlərində (o cümlədən də tarixi abidələrdə) ötürülməsindən və bunun nəticəsində onların təməlində və üzərində olan konstruksiyalarda vibrasiyaların yaranmasından məlumat verilir. Eyni zamanda burada həmin vibrasiyaların nəqliyyat axınının hansı göstəricilərindən daha çox asılı olduğu da araşdırılır.
Açar sözlər: Nəqliyyat vasitəsi, dalğalanma, vibrasiya, tarixi abidə, təməl

TRAFFIC PROBLEMS IN THE FIELD OF PROTECTION OF HISTORICAL MONUMENTS


Chobanzade Ismayil– PhD, ass.prof., department of Transport and logistics, AzUAC, ismayilcobanzade54@gmail.com

Abstract. The article deals with the issue of the constant increase in the number of vehicles in the world (especially car parks), which affects the environment, but is not widely reflected in the technical literature. That is, the problems created by transport in the field of protection of historical monuments. Specifically, the article provides information on the transmission of fluctuations in the flow of traffic flows through the supporting surface of the surrounding construction sites (including historical monuments) and the resulting vibrations in their foundation and structure. At the same time, it examines which of these vibrations are most dependent on traffic flow.
Keywords: Vehicle, ripple, vibration, historical monument, foundation

Giriş. Bildiyimiz kimi XX-ci əsri tam əminliklə avtomobilləşmə əsri adlandırmaq olar. Statistik məlumatlara əsasən bu gün dünyada avtomobillərin ümumi sayı artıq 2 mlrd. çatmaq üzrədir [1]. Bunun səbəbi nəqliyyat vasitələrinin insanların şəxsi həyatında və iqtisadiyyatın inkişafinda olduğu mühüm roldan irəli gəlir. Onların içində xüsusi yeri avtomobi nəqliyyatı tutur, çünki onun payına sərnişin daşımalarının təxminən 85-87%, yük daşımalarının isə 45-50%-i düşür [2,3]. Lakin avtomobil nəqliyyatı, bilidiyimiz kimi, müsbət tərəfləri ilə bərabər bir sıra mənfi xüsusiyyətlərə də malikdir. Bunların işində birinci yerdə onların yaratdığı yol-nəqliyyat hadisələri durur. Ümumidünya Səhiyyə Təşkilatının məlumatına əsasən hər il dünyada yol-nəqliyyat hadisələri nəticəsində təqribə 40-50 mln. insan xəsarət alır, 1-1,5 mln. isə həlak olur [2]. Bununla bərabər avtomobil nəqliyyatının istismarı nəticəsində ətraf mühitə də çox böyük ziyan vurulur (hava hövzəsinin ixrac qazları ilə, torpağın və yeraltı suların zərərli maddələrlə çirklənməsi, torpaqların zəbt edilməsi, səs səviyyəsinin artması və s.).

Əsas hissə. Bu məqalədə mən avtomobil nəqliyyatının ətraf mühitə vurduğu, lakin texniki ədəbiyyətda öz əksini geniş tapmayan digər növ ziyandan danışmaq istərdim (bu prosesdə avtomobil nəqliyyatı ilə bərabər elektrik mexaniki nəqliyyat vasitələrinin– tramvay və trolleybuslar, metropolitenin və dəmir yol nəqliyyatının da rolunu qeyd etmək lazımdır). Söhbət qeyd olunan nəqliyyat vasitələrinin ətrafda olan tikinti obyektlərinə və xüsusən də tarixi abidələrə olan mənfi təsirindən gedir. Məlumdur ki, hər bir hərəkətdə olan nəqliyyat vasitəsini müəyyən dalğalanmalar yaradan bir obyekt kimi qiymətləndirmək olar. Nəqliyyatın hərəkəti zamanı yaranan dalğalanmalar

yol (və ya digər dayaq) səthinə ötürülür və onun vasitəsilə ətrafa yayılır. Bunun nəticəsində ətrafda yerləşən tikinti obyektlərində müxtəlif tezlikli vibrasiyalar yaranır (bunlara texniki ədəbiyyatda "nəqliyyat vibrasiyaları" deyilir). Yaranan vibrasiyalar həm tikinti obyektinin təməlinə, həm də onun üzərində yerləşən konstruksiyaya mənfi təsirlər göstərir. Belə ki, vibrasiyaların təsiri nəticəsində birinci növbədə tikilinin təməlində müxtəlif ölçülü çatlar əmələ gələ bilər (bax 1 saylı sxemə).



Sxem 1.

Vibrasiyaların dəfələrlə təkrarlanması prosesində həmin çatlar inkişaf edir və təməlin üzərində yerləşən konstruksiyaya ötürülə bilər. Bundan başqa daimi təsir göstərən vibrasiyalar tədricən təməli zəiflədir və son nəticədə həm onun, həm də bütövlükdə konstruksiyanın dağılmasına səbəb ola bilər [4].



Sxem 2

Aparılan tədqiqatlar göstərir ki, nəqliiyyat vasitələrinin hərəkəti zamanı dayaq səthində yaranan dalğalanmaların qiyməti müxtəlif faktorlardan asılıdır: nəqliyyat vasitəsinin növündən (avtomobil, tramvay və ya dəmir yolu qatarı), tam kütləsindən, onun sürətindən və hərəkət xarakterindən və sair. Tikinti obyektində yaranan nəqliyyat vibrasiyaların qiymətinə isə öz növbəsində əsasən aşağıdakı amillər təsir edir: tikinti obyektlərindən nəqliyyat vasitələrinin hərəkət zolağına gədər olan məsafə

(Rusiyada tətbiq olunan normala əsasən bu məsafə ən azı 40- 50m olmalıdır), nəqliyyatın hərəkət zolağının alt səthində istifadə olunan qruntun materialı və onun göstəriciləri, təməlin materialı, konstruksiyası və təməlin oturduğu qruntun xüsusiyyətləri (bax 2 saylı sxemə).

Bütün bu məsələlər, yəni dalğalanmaların və onların yaratdığı vibrasiyaların tikinti obyektlərinin (xüsusəndə tarixi abidələrin) təməli və konstruksiyalarına təsiri nəzəri cəhətdən fizikanın statistik dinamika bölməsinin qanunları ilə ümumi cəhətdən izah olunur. Lakin praktiki cəhətdən bu tədqiqatların nəticələri öz istifadəsini müxtəlif tikinti obyektlərinin layihələndirilməsi və ya mövcud tarixi abidələrinin qorunması sahəsində aparılan işlərdə hələlik geniş tapmamışdır. Bunu bir neçə səbəblə izah etmək olar.Gəlin onlara baxaq.

Yuxarıda qeyd etdiyimiz məsələyə- nəqliyyat vibrasiyalarının tikinti konstruksiyalarına təsiri ilə əlaqədar yaranan problemlərə hələ XX- ci əsrin 60-cı illərində diqqət yetirilməyə başlanmışdır. Misal olaraq rus alimləri V.V.Bolotin və V.V.Ekimovun apardığı elmi tədqiqatları göstərmək olar. Öz işlərində onlar statistik dinamikanın qanunları əsasında nəqliyyatın yaratdığı vibrasiyaların tikinti konstruksiyalarına olan təsiri barədə qeyd etmiş və bu təsirlərin tikinti obyektlərinin layihələndirilməsi və mövcud olan obyektlərin (o cümlədən tarixi abidələrin) qorunması zamanı mütləq nəzərə alınmasını tövsiyyə etmişdilər [4]. Bu barədə o zaman xarici alimlərdə yazırdılar. Lakin bunlar hamısı ümumi nəzəriyyə idi. Praktikada isə bu nəzəriyyənin tətbiqi ona görə çətin idi ki, hər bir tikinti obyektinə fərdi qaydada yanaşmaq tələb olunurdu, çünki nəqliyyat vibrasiyaların kəmiyyəti və təsiri bir çox amillərdən asılı olduğundan (onlar barədə yuxarıda qeyd edilmişdir) bütün hallarda eyni qaydada təsir göstərmirdilər. Bunula əlaqədar olaraq hər bir konkret obyekt üçün fərdi tədqiqatların aparılması tələb olunurdu: məsə- lən, həmin obyektin riyazi modelinin yaradılması, yaxınlıqda keçən yollarda nəqliyyat axınlarını xarakterizə edən göstəricilərin müəyyən edilməsi, təhlili, həmin ərazidə olan qruntların geoloji tədqiqatları və sair işlər. Bütün müəyyən edilmiş göstəricilərin hər birinin ayrı-ayrılığda və birlikdə yarana biləcək vibrasiyaların kəmiyyətinə təsir dərəcəsi öyrənilməli və onların içindən ən əsasları seçilməli idi. Bu işlərin aparılması birinci növbədə çoxlu sayda mürəkkəb riyazi hesabatların aparılmasını tələb edirdi. 60- cı illərdə bu məsələlərin həlli texniki problemlərə görə məhdudlaşırdı.

Müasir zamanda kompyuter texnoloqiyalarının sürətli inkişafı bu sıradan olan problemləri həll etməyə və hər bir tədqiq olunan obyektin riyazi modelini yaratmağa, bu model əsasında əldə olunmuş müxtəlif göstəricilərin yarana biləcək nəqliyyat vibrasiyalarının qiymətinə nə dərəcədə təsir etdiyini təhlil etməyə imkan verir. Lakin buna baxmayaraq müasir zamanda yenə də tikinti obyektlərinin layihələndirilməsi zamanı bu məsələyə əksər hallarda fikir vermirlər. Mənim fikrimcə bu ondan irəli gəlir ki, layihələndirmələr prosesində həmin obyektlər seysmik təsirlərə davamlılıq baxımından hesablanır. Lakin bunu tarixi abidələrə şamil etmək mümkün deyil. Ona görə də həmin abidələrin yerləşdiyi ərazilərdə və onların yaxınlığında hər hansı bir tikinti işlərinin və ya yeni yolların salınması (və ya rekonstruksiyası) zamanı yarana biləcək nəqliyyat vibrasiyalarının həmin tarixi obyektlərə edə biləcəyi təsir müvafiq tədqiqatlar işləri aparılmaqla mütləq araşdırılmalıdır [5]. Tədqiqatların nəticələri göstərir ki, birinci növədə avtomobil və dəmir yollarının tarixi abidələrdən mümkün qədər aralı məsafədə keçməsini təmin etmək lazımdır (layihələndirmə zamanı). Əgər mövcud olan intensiv nəqliyyat axınlarının digər ərazilərdən keçməsini təmin etmək mümkün deyilsə, onda tarixi abidələrin yanından keçən ərazilərdə müvafiq mühafizə tədbirlərinin həyata keçirilməsi zəruridir. Yəni nəqliyyat vasitələrinin hərəkət sürəti mümkün gədər məhdudlaşdırılmalı və agır tonnajlı nəqliyyatın həmin ərazilərdən keçməsi qadağan edilməlidir (tədqiqatlara əsasən yaranan vibrasiyanın kəmiyyətinə məs nəqliyyat axınının intensivliyi, sürəti, tərkibi və nəqliyyat vasitələrinin kütləsi böyük təsir göstərir). Eyni zamanda iri şəhərlərdə (o cümlədən Bakıda) tarixi abidələrin (komplekslərin) yerləşdiyi ərazilərin altında metropoliten xətlərinin keçdiyi halda, qatarların yaratdığı vibrasiyaların abidələrə olan təsirin kəmiyyət baxımından qiymətləndirilməsi üçün müvafiq elmi-tədqiqat işlərinin aparılması tövsiyyə olunardı. Bundan əlavə tarixi abidələrin qorunması ilə əlaqədar dövlət normativ aktlarında lazımi əlavələrin tətbiq edilməsi məsləhət görülərdi.

Nəticə. Beləliklə, alimlər tərəfindən aparılan çoxsaylı elmi-tədqiqat işləri və statistik dinamikanın qanunlarının tikinti mexanika sahəsinə tətbiqi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

-müasir zamanda avtomobilləşmə prosesinin sürətlənməsi tarixi abidələrin nəqliyyatın mənfi təsirindən qorunması məsələlərini daha da aktuallaşdırır;

-tarixi abidələr və komplekslərin nəqlyyat vasitələrinin yaratdığı mənfi təsirlərdən effektiv mühafizəsi üçün bu sahədə elmi-tədqiqat işlərinin daha geniş aparılmasına ehtiyyac vardır;

-tarixi abidələr və komplekslərin mühafizəsi üçün bu sahədə olan dövlət normativ aktlarında elmi-tədqiqat işlərinin nəticələrinə əsaslanan müvafiq əlavələrin aparılması məqsədə uyğun olardı.

Ədəbiyyat

1. Статья “Парк автомобилей в мире” интернет сайт https://studfiles net/preview /4312964/page4/ 09.08.2019
2. Статья “Уровень автомобилизации” интернет сайт https://studfiles net/preview /4312965/page 4/ 09.08.2019
3. Ş.H.Heydərov, R.P.Bayramov “Nəqliyyat vasitələrinin təhlükəsizliyi və avtotexniki ekspertizası”. Dərslik, I hissə, Bakı, “Təhsil” NPM, 336s. 2009
4. https://okn.lenobl.ru/media/docs/26765/
5. Экспериментальная динамика сооружений. Мониторинг транспортной вибрации: Монография /Е.К.Борисов, С.Г.Алимов, А.Г.Усов и др.– Камчатский ГТУ, 128с. 2007